

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Azərbaycanın əbədiyaşar memarı HEYDƏR ƏLİYEV**



10


# SƏS

№ 199 (6882)

31 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik


# Xankәndi manifesti – 20 ilin qürur vә fәxarәt salnamәsi!



2

# Fransadan "mәdәni" terror

## *Parisin maraqları Cənubi Qafqaza dəhşətli müharibə vəd edir*



3

**"Yarandığı gündәn Kanada heç vaxt müstәqil dövlәt olmayıb"**



11

**Keysәriyyә-Allaha qarşı çıxanların seçimi**



12

**Әli Kәrimli trollarının sayını artırıb**



13

**Körpә qatillәri niyә cәzalandırılmır?**



11

**Ermәni bloger niyә tәqib olunur?**



13

# Xankəndi manifesti – 20 ilin qürur və fəxarət salnaməsi!

*PREZİDENT İLHAM ƏLİYEV: "Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Azərbaycan xalqı bu qələbəni öz qanı-canı bahasına əldə etmişdir"*







2023-cü il, 15 oktyabr tarixində Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev prezident vəzifəsinə seçilməsinin 20-ci ildönümündə tarixi torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində və Əsgəran qəsəbəsində müqəddəs üçrəngli bayrağımızı qaldırdı. Bu şərəfli, tarixi gün cənab Prezidentin 20 illik gərgin fəaliyyətinin zəfər zirvəsi, xalqın öz Lideri ilə həmrəyliyinin, birliyinin təntənəsidir. Dövlətimizin başçısı gərgin əməyi, qətiyyəti, iradəsi ilə ötən 20 illik fəaliyyətində göstərdi ki, O, xalqına verdiyi bütün vədləri yerinə yetirmək iqtidarındadır. Və son 20 ilin uğurları bir daha sübut etdi ki,

### ONUN SÖZÜ İMZASI QƏDƏR KEÇƏRLİDİR

Çünki Prezident İlham Əliyev nəyi, necə, nə vaxt etmək lazımdır yaxşı bilir. Və xalqımız dövlətimizin başçısının son 20 illik prezidentlik fəaliyyəti zamanı reallığa çevrdiyi bütün uğurların şahidləriyik. Xüsusilə də, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızı qaldırmaqla bir əsrlik saxtakarlığa son qoyulduğunu bütün dünyaya nümayiş etdirdi. 20 il öncə xalqımız etimad mandatı verərək özünə Prezident seçdiyi İlham Əliyevə inandı, güvəndi və səbirlə gözlədi. Sözü imzası qədər keçərli olan Azərbaycan Prezidenti tam müstəqil siyasəti ilə 20 ildə Ermənistanı dünyada işğalçı dövlət kimi tanıda bildi. Bununla bağlı beynəlxalq təşkilatlarda qətnamələrin, bəyanatların qəbul olunmasına nail oldu. Amma işğalçının havadarları imkan vermədilər ki, münaqişə sülh yolu ilə tənzimlənsin və Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını geri qaytarsın.

Sözsüz ki, Prezident İlham Əliyev bütün bunları görürdü və yaxşı bilirdi ki, işğalçı ölkə keçmiş status-kvonu qorumaq üçün havadarlarından aldığı tapşırıqların icrasını təmin edir. Keçmiş münaqişənin həlli istiqaməti üzrə yaradılan ATƏT-in tarixin arxivinə göndərilən Minsk qrupunun da xristian təəssübkeşliyi ikili standartların tətbiqini şərtləndirirdi. Məhz uzaqgörən Lider kimi Prezident İlham Əliyev ordumuzun gücünü gündən-günə artırdı. Ən müasir silahlar alındı, gənc nəslin vətənpərvərlik ruhunun yüksəlməsi istiqamətində çox mühüm işlər görüldü. Zaman yetişdi, Azərbaycanın səbir kasası daşdı və 2020-ci ildə Vətən müharibəsində İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı ilə cəmi 44 günə Ermənistan diz çökdürüldü. Xalqın yurd həsrətinə son qoyuldu. Dünya Azərbaycanın gücünə, qüdrətinə şahidlik etdi.

Məğlub Ermənistan sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirərək vaxt istədi. Amma həmişə olduğu kimi, yenə də erməni məkri özünü büruzə verdi. Havadarlarına arxalanan Ermənistan həm sülh müqaviləsi imzalamaqdan boyun qaçırır, həm də Qarabağdakı separatçıları silahlandırır, keçmiş qondarma "Dağlıq Qarabağ Respublikası"na dəstək olurdu. Azərbaycan Prezidentinin dəfələrlə separatçılara xəbərdarlıq etməsinə baxmayaraq, separatçı dəstələr tez-tez hərbi təxribatlar törədirdilər. Nəhayət, bu il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri antiterror tədbirləri keçirərək separatçıları 23 saat ərzində məhv etdi. Bunun ardınca qondarma qurum ləğv edildi və oktyabrın 15-də tariximizdə daha bir şanlı səhifə açıldı.

### «AZƏRBAYCAN XALQININ ONILLIKLƏR ƏRZİNDƏ OLAN ARZULARINI ÇİN ETDİK»

Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləyib ki, özünü "prezident" adlandırmış üç təlxək bax, burada (Xankəndidə - red.) oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq: «Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il», - deyən dövlətimizin başçısı xatırladıb ki, üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı.

Prezident İlham Əliyev, həmçinin bildirib: "Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik».

«Burada (Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası – red.) oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir»,- deyən dövlətimizin başçısı bildirib: «Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!".

Bəli, Azərbaycan Prezidentinin Xankəndi müraciəti mərkəzi hakimiyyətin Qarabağın gələcəyinə, Ermənistanla normallaşma münasibətinə ismarışdır. Prezident İlham Əliyevin 20 illik hakimiyyəti Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinə uzanan, ölkəni qarışdıran əlləri kəsdi. Azərbaycanın qanayan yüzillik yarası sağaldı...Bir sözlə, bu gün Xankəndidə dalğalanan üçrəngli bayrağımız hər birimiz üçün xoşbəxtlik, fərəh, qürur, ləyaqət, fəxarət salnaməsidir. Dövlət başçımızın söylədiyikimi: «Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Azərbaycan xalqı bu qələbəni öz qanı-canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

**RƏFİQƏ HÜSEYNOVA**

RAKURS

# Fransadan "mədəni" terror

*Parisin maraqları Cənubi Qafqaza dəhşətli müharibə vəd edir*



***Erməni lobbisinin imkanları, onların yaşadıqları, mövcud olduqları ölkənin bütün sahələrinə necə nüfuz etdikləri barədə məlumatları oxuyanda daha çox siyasətçilərin, dövlət ərkanında olanların, bir sözlə rüşvət, korrupsiya və külli miqdarda pul vəsaiti hesabına öz məsləyini, mənliyini satanların taleyinə sadəcə acıyırsan.***

Əksinə, ölkəsində və beynəlxalq təşkilatlarda söz sahibi olan həmin şəxslər yenə ədalətdən danışır, sanki heç nə olmayıb kimi öz işlərinin dalıca gedirlər. İtirənlər isə həqiqəti dünyanın nüfuzlu ölkələrinin toplaşdığı qurumlarda axtaranlar olur. Azərbaycan hələ də ədalətin zəfər çalacağı günü, hələ də Ermənistanın işğalçılıq əməllərindən sonra xalqımıza, təbiətimizə, maddi və mədəni abidələrimizə, keçmişimizə, gələcəyimizə dəyən ziyanın ödəniləcəyi ilə bağlı beynəlxalq məhkəmənin qərarını gözləyir.



Bu arada xəbər verilib ki, Azərbaycan Qarabağla bağlı "min səhifəlik sübuta" əsaslanaraq Ermənistana qarşı Beynəlxalq Cinayət Məhkəməsinə (ICC) iddia qaldırıb. Materialdan göründüyü kimi, mətndə "Azərbaycanın suveren ərazilərinin Ermənistan tərəfindən otuz ilə yaxın qanunsuz hərbi işğalı ilə bağlı sübutlar" var. Bundan əlavə, söhbət "insanlığa qarşı digər cinayətlərdən" gedir, mətndə qeyd olunur. Qeyd olunub ki, Azərbaycan xalqına qarşı törədilən bu cinayətlər sadəcə olaraq hansısa təsadüfi, xaotik şəraitdə törədilmiş qanunsuz əməllər deyil, həm də etnik ədavət və radikal millətçi ideoloji xətt üzərində qurulub.

Beynəlxalq məhkəmələrdə dövlətlərarası şikayətlərin xüsusiyyətlərini nəzərə alaraq, Azərbaycanın Ermənistana qarşı iddiasına bir neçə il ərzində baxılmalıdır. Sentyabrın 19-da Azərbaycan hakimiyyəti Qarabağda lokal antiterror tədbirləri həyata keçirib. Bakı məqsədin "genişmiqyaslı təxribatların" qarşısının alınması, qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi və Ermənistan ordusunun bölmələrinin bölgə ərazisindən çıxarılması olduğunu deyib. Bir gün sonra separatçılar təslim olduqlarını, qondarma qurumu isə ləğv etdiklərini açıqlayıblar. Bundan sonra hər kəs düşünürdü ki, ermənilər Bakının təklif etdiyi şərtlərlə razılaşıb regionda çoxdan gözlənilən sülhün bərqərar olmasına səy göstərəcəklər. Amma bugünkü vəziyyət onu deməyə əsas verir ki, Ermənistan rəhbərliyi sülh, sabitlik və təhlükəsizlik məsələlərinə bir o qədər də ciddi yanaşmır. Rusiyadan ayrılmadan özünə arxa-dayaq, onun əvəzinə döyüşən, müharibə aparan himayədar axtarır.

### Erməni lobbisinin oyuncağı

Maraqlı xəbər budur ki, Fransanın mədəniyyət naziri Rima Əbdül Mələk Ermənistana səfər etdi. Səfəri maraqlı edən digər nüans isə fransalı nazirin Ermənistana anti-Azərbaycan mövqeyi ilə tanınan, erməni lobbisinin sözçüsü kimi fəaliyyət göstərən, Fransa Milli Assambleyasındakı Fransa-Ermənistan dostluq qrupunun sədri Ann-Lorans Petel ilə eyni təyyarədə gəlməsidir. Bu o deməkdir ki, erməni lobbisi Rima Əbdül Mələki İrəvana yollayır və nazir məhz ona verilən məlumat və tezislər əsasında bəyanat səsləndirir. Xanım nazirin Qarabağla bağlı səsləndirdiyi bəyanat da erməni ruhundadır, erməni lobbisinin çürümüş anti-Azərbaycan təbliğatının təkrarıdır. Bunlar həm də köhnə "erməni havaları"dır. Nazir iddia edir ki, Qarabağ bölgəsində tarixi və mədəni abidələr təhlükə altına düşüb. Bununla da guya Qarabağda "erməni irsinin mövcudluğu"ndan danışan nazir əslində uydurmaların girdabında olduğunu sübut edir.

Eyni zamanda Fransa Cənubi Qafqaz siyasətini bütün sahələr üzrə Azərbaycana qarşı hücuma keçməklə qurmaq istəklərini qətiyyən gizlətmir. Bundan əvvəl Fransanın XİN başçıxı, iri şəhərlərinin merləri, senatorlar, deputatlar, o cümlədən president Makron Azərbaycanı əsassız yerə ittiham etməklə erməni lobbisinin, xristian təəssübkeşliyinin əsiri olduqlarını isbatlayıblar. Mədəniyyət abidələri barəsində çıxışlar etməklə fransız siyasətçilər Azərbaycanı keçmişlə, mədəni abidələrin qorunması ilə "vurmağa" can atır və düşünür ki, məqsədinə çata biləcək. Beynəlxalq qanunların, sənədlərin təsirsiz olduğu bir dartışmanı mədəni, etnik,




multikultural dəyərlərin hakim olduğu sahələrə gətirmək istəyir.

Cənubi Qafqaza can atan Fransa bundan əvvəl özünə, öz fəaliyyətinə münbit şərait yaratmaq, hər 3 ölkəni və onlara yaxın, yəni regional aktorlar olan dövlətləri neytrallaşdırmaq istəyir. Cənubi Qafqazın lider ölkəsi Azərbaycandır, Paris də bilməmiş deyil ki, regionda bütün məsələlər Bakıdan soruşulur və onun xeyir-duası olmadan heç bir kənar ölkə burada hər hansı layihədə iştirak edə bilməz. Bu, bir reallıqdır və Azərbaycanın potensialı regionu öz təsir dairəsində saxlamağa imkan verir. Fransa isə nədənsə bunu unudur, uzun illər müstəmləkəçilik siyasəti yürütdüyü Afrika qitəsi ilə Cənubi Qafqazı eyniləşdirir. Bizi ittiham etməzdən əvvəl Fransa keçmişinə nəzər salsın, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda Azərbaycanın mədəni, tarixi irsinə qarşı görünməmiş vandallıqlar törədən Ermənistanı yada salsın. Azərbaycanı hansısa olmayan hadisədə günahkar bilmək təəccüblüdür, amma çaşqınlıq yaratmamalıdır. Fransa Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean regionu və Latın Amerikasında müstəmləkəyə çevirdiyi, təbii sərvətlərini taladığı, tarixini və mədəniyyətini silməyə çalışdığı ölkələrlə bağlı faktların da UNESCO, AŞPA tərəfindən araşdırılmasını təşkil etsin. Onda haqq-ədalət öz yerini tutar.



UNESCO və AŞPA-dan söz düşmüşkən, bu qurumlar da öz müstəqilliklərini çoxdan itiriblər, transmilli şirkətlərin və iri dövlətlərin vassalına çevriliblər. Sifariş necə gəlirsə o cür də yerinə yetirilir. Fransa Ermənistanla müdafiə sahəsindəki əməkdaşlıq sazişinin fonunda mədəniyyət sahəsini özünün Azərbaycana qarşı total kampaniya siyasətinin mərkəzinə gətirir. Fransa regionda Ermənistanı silahlandırmaqla qüvvələr balansını dəyişəcəklərini düşünürlər. Ancaq Fransanın həm hərbi, həm siyasi, həm də mədəni sahədəki Ermənistana verdiyi dəstək proqramı perspektiv baxımından elə Parisin özünə sərfəli deyil. Çünki Paris bu qədər pul və enerji xərcləyir, kəşfiyyatını səfərbər edir, lakin bu, regionda Azərbaycanın hərbi-siyasi parametrlərlə yaratdığı reallıqların kölgəsində qalır.

Bəs Fransanın edə biləcəyi nə isə varmı? İlk növbədə, Fransa ambisiyasına şərik tapmağa çalışa bilər və Hindistanla əlaqələr qurulması mümkündür. İkincisi, Fransa Hindistanla mümkün sövdələşmə kanalına Azərbaycanla Türkiyəyə rəqib tərəfdə dayanan regional oyunçuları da qoşmağa cəhd göstərə bilər. Keçmiş müstəmləkə olan Hindistanın anti-müsəlman rolu Parisin işinə yaraya bilər. Ona görə də hər iki ölkənin Ermənistan maraqları uzlaşır. Maraqlıdır ki, həmişə sülhməramlı missiya təmsilçisi təbliğatını genişləndirən Parisin əməlləri görüntülərlə tərs mütənasiblik təşkil edib və bu gün də davamlı olaraq genişlənir.

### Fransanın Suriyada arxeoloji terroru

Fransız mütəxəssislər 2020-ci ilin əvvəllərindən bəri Suriya ərazisində qazıntılar aparmağa başlayıblar. Arxeoloji qazıntılar məxfi qrif, eləcə də kürdlərin müdafiəsi adı altında aparılır. Agentlik bu bölgədə təxminən 200 fransız əsgərinin olduğunu qeyd edib. Qazıntılar Deyr əz-Zor şəhəri yaxınlığında aparılır. Məhz bu ərazidə qədim Assuriya şəhəri Dur Katlimmunun xarabalıqları yerləşir. Tapılan abidələr ABŞ bazasına daşınır. Fransanın Livan dövlətini hələ də idarə etdiyinə dair xəbərlər təsadüfi deyil. Məhz bu ölkə vasitəsilə Paris Yaxın Şərq siyasətini sürdürür. Münaqişələrin çözülməməsi, əksinə daha da qızışmasının arxasında rəsmi Yelisey Sarayının dayandığını isbat etmək də artıq zəhmətdir. Çünki bu, faktdır.

Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Mən öz haqq işlərini və azadlıq arzularını beynəlxalq ictimaiyyətə çatdırmaq üçün Bakı nazirlər görüşü çərçivəsində tədbir keçirəcək Fransanın dənizaşırı icma və ərazilərindən olan hörmətli nümayəndələri salamlayıram.

Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik.

Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır. Amma alınmayacaq, çünki, dünya birliyi müstəmləkəçiliyə yox deyir.

**V.VƏLİYEV**

# Sosial siyasətin mahiyyəti: DOST mərkəzləri

## *DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 98,2 faiz təşkil edib*

***"ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevrilən DOST mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində inqilab yaradıb. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə Azərbaycan bu sahədə də öz sözünü demiş oldu. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir. Bu ilin yanvar-sentyabr aylarında DOST mərkəzlərində 518 min vətəndaşa xidmət göstərilib.***




DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 98,2 faiz təşkil edib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əsasında 159 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur. "Könüllü DOST" proqramına isə bu ilin 9 ayında 20,8 minə yaxın müraciət olub və proqrama daha 1123 nəfər cəlb edilib.






Ölkəmizdə bu və ya digər lahiyələrin reallaşması onu göstərir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər insanların rifahının daha da yüksəlməsinə yönəldilib. Ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Təbii ki, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi də qarşıya qoyulan məqsədlər sırasında yer alıb. Ölkəmizdə "ASAN xidmət" mərkəzləri kimi DOST mərkəzlərinin də sayı artır. Bu gün ölkəmizdə DOST mərkəzlərinin sayı 7-ə çatıb.

Əlbəttə ki, postmüharibə dövründə də sosial sahədə, o cümlədən DOST mərkəzləri vasitəsilə həyata keçirilən tədbirlər dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir. Ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri hər bir vətəndaşda məmnunluq yaradır. Vətəndaşların böyük etibarını qazanıb. Sosial xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması Azərbaycanın yeni brendinin spesifik cəhətləri sırasındadır. Göründüyü kimi, davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilib, həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə olunub. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST konsepsiyası çərçivəsində istifadəyə verilən mərkəzlərdə müxtəlif xidmətlərdən yararlana bilirlər. Fəaliyyət göstərən DOST mərkəzləri vətəndaşların bütün xidmətlərdən "bir pəncərə"yə müraciət etməsinə və "bir pəncərə"dən faydalanmasına imkan verir.

Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələnin başlanmasını şərtləndirən, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək istiqamətində əhəmiyyətli dəyişikliyə səbəb olan DOST konsepsiyası ölkəmizdə həyata keçirilən institusional-struktur islahatlarının mühüm tərkib hissəsidir.

***Zümrüd BAYRAMOVA***

# "Region dövlətləri birgə əməkdaşlıq edərək daha da güclənə bilər"

***"3+3" formatının çox böyük əhəmiyyəti var. Əslində uzun müddətdir ki, həm Azərbaycan Prezidenti İlham Əliyev, həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu məsələ ilə bağlı öz mövqelərini bildiriblər. Azərbaycan da dəfələrlə bu məsələnin önəminə xüsusi diqqət çəkib". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.***

"Hesad edirik ki, bu gün bölgə dövlətləri öz aralarında əməkdaşlıq edərək daha da güclənə və böyük işlər görə bilərlər. Bu, bütövlükdə ölkəmizin də inkişafına çox ciddi və mühüm töhfələr verə bilər. Bugünkü gündə Avropa Birliyinin və dövlətlərinin məsələlərə ikili standartlarla yanaşması, Azərbaycanın haqlı olduğu halda Ermənistanı dəstəkləməsi artıq bu qurumlara olan inamı və etimadı zəiflədir",- deyə o əlavə edib.

Deputat sözlərinə düz edərək bildirib ki, bu format vasitəsilə birgə görüşlər keçirərək altı dövlət regionun təhlükəsizliyi, gələcək inkişafı ilə bağlı bir çox mühüm layihələr həyata keçirə bilər: "Bu da bölgədə sülh və



əmin-amanlığın bərqərar olmasına, əməkdaşlığın daha da möhkəmlənməsinə öz müsbət töhfəsini verəcəkdir. Ona görə də Azərbaycanın bu gün atdığı addımlar xüsusi önəm daşıyır".

***Ləman Sərraf***

# Türkiyə Cümhuriyyəti – 100 illik tarixi yolda



## Prezident İlham Əliyev: "Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil"

***Dost, qardaş ölkə olan Türkiyə Cümhuriyyəti müstəqilliyinin 100-cü ildönümünü qeyd edir. Siyasi, iqtisadi, hərbi cəhətdən qüdrətli Türkiyə 1923-cü il oktyabrın 29-da idarəetmə formasına görə respublika elan olunaraq 100 ildir ki, müstəqil yaşayır. Siyasətini dünyəvilik, demokratiya kimi prinsiplər əsasında quran Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə daha möhtəşəm uğurlara imza atıb. Qeyd edək ki, Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürk Qurtuluş savaşında Qərb ölkələri üzərində qələbədən sonra 1923-cü il oktyabrın 29-da Türkiyədə respublika qurulduğunu elan edib.***

Tarixi dövrə nəzər salsaq görərik ki, Türkiyə dünyanın siyasi və hərbi baxımdan çox mürəkkəb dövründə respublika olmaq qərarına gəlir. Belə ki, Birinci dünya müharibəsindən məğlub ayrılan Osmanlı imperiyası İngiltərə, Yunanıstan, Fransa və İtaliya kimi xarici dövlətlərin işğalı ilə üzləşib. Belə bir dövrdə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə türk vətənsevərlər 1919-cu il mayın 19-da Samsundan ölkənin azadlığı uğrunda mübarizəyə başlayıblar. Ağır və əzmkar mübarizə qısa müddət sonra müsbət nəticəsini verməyə başladı, vətən torpaqları düşmən tapdağından xilas edildi. Tarixi zəfərlərlə zəngin olan Türkiyənin zəfərləri sırasında ən önəmli yerlərdən birini tutan 30 avqust 1922-ci ildə sonu qələbə ilə bitən Dumlupınar savaşı olub.

### "SABAH RESPUBLİKANI ELAN EDƏCƏYİK"

Mustafa Kamal Paşa həmin dövrdə deyirdi: "Türkiyənin bugünki mübarizəsi yalnız özünün azadlığı naminə olsaydı, bəlkə daha qısa və daha az qanlı olar və tez də qurtarardı. Türkiyə qəti və ciddi səylər sərf edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir". Mustafa Kamal Paşa tarixi əmrini vermişdi: "Ordular! İlk hədəfiniz Ağ dənizdir. İrəli!" Bu əmri alan qəhrəman türk ordusu böyük bir qələbə həyəcanı ilə irəli atıldı. Türk süvariləri, xüsusilə çevik hərəkətləri ilə uğurlar qazandılar.

Aparılan mübarizə və mücadilə uğurlu bir sabahla nəticələndi. Tarixi mənbələrdə qeyd olunur ki, 1923-cü il oktyabrın 23-də Ankara paytaxt elan edildi. Oktyabrın 28-də axşam Mustafa Kamal Paşa yaxın dostlarını Çankayaya dəvət etdi və "sabah respublikanı elan edəcəyik", dedi. Oktyabrın 29-da Mustafa Kamal Atatürk əvvəlcədən hazırladığı və ölkənin respublika elan olunmasını nəzərdə tutan layihəni TBMM-ə təqdim etdi. Həmin layihədə "Türkiyə dövlətinin forması cümhuriyyətdir. Türkiyə dövləti Böyük Millət Məclisi tərəfindən idarə olunur" sözləri yer alırdı. Parlament həmin qanun layihəsini qəbul etdi və Türkiyə respublika elan olundu. Həmin tarixdən etibarən Osmanlı imperiyası rəsmi şəkildə Türkiyə Cümhuriyyəti ilə əvəzləndi.

### AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUQ VƏ QARDAŞLIĞI REGİONDA ƏMİN-AMANLIĞIN VƏ SABİTLİYİN TƏMİNATIDIR

Dövlətçilik ənənələri olmadan müstəqilliyə nail olmaq və onu qoruyub saxlamaq əlbəttə ki, mümkün deyil. Ötən 100 ildə Türkiyə Cümhuriyyəti müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək dünyanın inkişaf etmiş ölkələrindən birinə çevirdi. Milli liderlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən bir millət, iki dövlət səviyyəsinə yüksəldilmiş Azərbaycan-Türkiyə dostluq və qardaşlığı bu gün regionda əmin-amanlığın və sabitliyin təminatıdır. Vətən müharibəsində Türkiyə dövlətinin Azərbaycana göstərdiyi siyasi dəstək bunun bariz ifadəsidir. Bu məqamda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" ifadəsini xatırlamaq yerinə düşər.

Beynəlxalq Qars müqaviləsinə əsaslanan siyasi müttəfiqliyimiz 100 ildən sonra Şuşa Bəyannaməsi ilə bir daha təsdiq olunmuş, həm ikitərəfli münasibətlərimiz, həm də regional əməkdaşlığımız yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq".

Ölkə prezidentlərinin 2021-ci il iyunun 15-də türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada dostluq və qardaşlığımızı gücləndirəcək, əlaqələrin daha da inkişafına səbəb olacaq Şuşa Bəyannaməsini imzaladılar. Bu Bəyannamə müttəfiqlik münasibətlərinin gündən-günə genişlənməsində əhəmiyyətli bir sənəddir. Bu gün Türkiyə-Azərbaycan əlaqələri yalnız iki ölkəyə deyil, bölgədə sülh və sabitliyə xidmət etməkdədir.

Ümummilli Lider Heydər Əliyevin bütün türk dünyasında məşhur olan kəlamı – "Bir millət, iki dövlət" anlayışının gerçək həyatda təcəssümünün şahidi olduğumuz tarixi məqamda Türkiyənin dünyada artan nüfuzu və rolu hər bir azərbaycanlıda qürur hissi yaşadır.

Bu gün Azərbaycan-Türkiyə münasibətləri Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, dünyada bənzəri olmayan qarşılıqlı etibara və etimada əsaslanır. Bizim xalqlarımızı birləşdirən yalnız etnik, dini və mədəni köklər deyil, eyni zamanda, mürəkkəb və ziddiyyətli proseslərin cərəyan etdiyi XXI əsrdə bir-birimizin yanımızda olmağımızdır.

### AZƏRBAYCANIN GƏLƏCƏYİ GƏLƏCƏYİMİZ, SEVİNCİ SEVİNCİMİZ, TALEYİ TALEYİMİZ, KƏDƏRİ KƏDƏRİMİZDİR

Azərbaycan-Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Türkiyə 44 günlük Vətən müharibəsində olduğu kimi, azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində, infrastrukturun qurulmasında da qardaş Azərbaycanın yanındadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Azərbaycanın gələcəyi gələcəyimiz, sevinci sevincimiz, taleyi taleyimiz, kədəri kədərimizdir. Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Aeroportunun açılışı Azərbaycandan dünyaya bir mesaj oldu. Hava Limanının Azərbaycan və Türkiyə Prezidentlərinin birgə iştirakı ilə açılışı qardaş ölkə ilə birliyimizi, dostluğumuzu, gücümüzü bir daha göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqlarının dalğalanması da qırılmaz dostluğumuzdan qaynaqlanır. Azərbaycan və Türkiyə prezidentlərinin Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini birgə qoymaları tarixi bir hadisə olaraq əbədiləşdi. Zəngəzur dəhlizi türk dünyasının birləşməsi, regionun təhlükəsizliyi və sosial-iqtisadi inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi yalnız Azərbaycanın və Türkiyənin deyil, bütün region xalqlarının həyatında dəyişikliklər mərhələsinin başlanmasına səbəb olacaq. "Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik" – deyən dövlət başçısı bildirib ki, Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar: "Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq".

Zəngilanın işğaldan azad edilməsindən iki il sonra qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan və Cəbrayıla səfər etməsi və Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirakı tarixi hadisəyə çevrildi. Hər zaman bir-birinin yanında olan Azərbaycan və Türkiyənin birliyinin, həmrəyliyinin dünya üçün nümunə olduğu bir daha təsdiqləndi. Əlbəttə ki, bu və ya digər yaddaqalan hadisələrlə zəngin olan tarixi qardaşlıq nümunələri bir daha göstərdi ki, bizim birliyimiz Azərbaycan – Türkiyə birliyi əbədi və sarsılmazdır.

**Nəzakət ƏLƏDDİNQIZI**

TƏHLİL

# "Nə? Harada? Nə zaman?"



### Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş intellektual oyuna start verilib



Oktyabrın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilən "Nə? Harada? Nə zaman?" intellektual oyununa start verilib. YAP-ın yerli təşkilatlarını və Gənclər Birliyini təmsil edən 85 komandanın iştirakı ilə keçirilən intellektual oyunun seçmə mərhələsi üzrə yarışlar Bakı, Xaçmaz, Qəbələ, Gəncə, Ağcabədi, Cəlilabad, Kürdəmir və Naxçıvanda təşkil olunub.



Komandaları təmsil edən ümumilikdə 680 gənc Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və ölkəmizin müasir tarixində baş verən mühüm hadisələr, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti ilə əlaqədar sualları cavablandırıblar.

8 qrup üzrə ümumilikdə 22 qalib komanda noyabrın 7-də "Gülüstan" sarayında keçiriləcək final mərhələsində I-III yerlər uğrunda mübarizə aparacaqlar.

# Yenə payız, yenə qrip, yenə soyuqdəymə...





***Payız-qış ayları, xüsusilə, uşaqların daha çox xəstələndiyi vaxtdır. Bu dövrdə məktəbdə və bağçada olan uşaqlar üçün xəstəlik riski həmişə yüksəkdir. Bu riski minimuma endirmək, məktəb dövründə uşaqları xəstəliklərdən qorumaq üçün tədbirlər həyata keçirmək lazımdır. Həkimlər uşaqlar arasında yayılan mövsümi qripə qarşı diqqətli olmağı vacib bilir. Belə xəstəliklər uşaqlarda, böyüklərə nisbətən daha sürətli inkişaf edir və ehtiyat tədbirləri görülmədikdə bronxit və pnevmoniyaya qədər gedib çıxa bilər.***










Məktəb və bağçayaşlı uşaqların immun sistemi hələ tam formalaşmadığı üçün bu dövrdə onların ildə 8-10 dəfə infeksiyaya yoluxması normal hesab olunur. Bu mövsümdə uşaqlarda ən çox rast gəlinən xəstəlik soyuqdəymədir. Soyuqdəymə özünü yüngül burun axıntısı, burun tutulması və qriplə büruzə verir. Bu müddət ərzində qızdırma 38 dərəcədən yuxarı qalxmır və uşağın ümumi vəziyyətində heç bir problem yoxdur. Uşağın hərarəti normal səviyyəyə düşdükdən sonra soyuqdəymə heç bir problem yaratmayacaq. Tənəffüs yolları infeksiyalarının 90 faizi viruslardan qaynaqlansa da, antibiotik müdaxiləsi tələb etmir. Bu səbəbdən xəstəlik qızdırmasalıcı dərmanlarla müalicə olunur.

Payız-qış aylarında uşaqlarda ikinci ən çox rast gəlinən xəstəlik faringitdir. Faringit də 85-90 faiz hallarda viruslardan qaynaqlanır. Bu səbəbdən antibiotiklərin istifadəsi tövsiyə edilmir. Bu xəstəlikdə bol maye qəbul etmək, qızdırma salan dərmanlardan istifadə etmək, bitki çayı içmək vacibdir. Ancaq faringitlə birlikdə tonzillit də baş verə bilər. Boğazda ağrı, qaşınma, ağrılı udma, 39 dərəcə ətrafında qızdırma da mümkündür. Bəzən qızdırma düşsə də, uşağın ümumi vəziyyətində rahatlıq olmur. Qızdırmanın 48 saatdan çox davam etdiyi və ya ümumi vəziyyətinin pis olduğu hallarda həkimə müraciət etmək lazımdır.

Həkimlər, adətən, uşaqlarda antibiotiklərin istifadəsini tövsiyə etmir. Məlumdur ki, antibiotiklərin lazımsız istifadəsi səbəbindən bədənin antibiotiklərə qarşı müqaviməti yaranır. Antibiotiklər bağırsaq florasına təsir edir və immunitet sistemini pozur. Daha ağır xəstəliklər zamanı antibiotik qəbul edildikdə uşaqlar sağalmır. Bu səbəblə uşaqların tənəffüs yolu infeksiyalarında qızdırma salan dərmanlardan istifadə etmək, bol maye içmək, burun yollarını açmaq, cökə, itburnu kimi bitki çayları vermək daha effektiv olacaq.

Məktəbə, bağçaya təzəcə qədəm qoyan körpə uşaqlar ilk dəfə belə izdihamlı mühitlərə daxil olduqları üçün onların müxtəlif infeksiyalarla qarşılaşma və xəstələnmə riski yüksəkdir. İmmunitet sisteminin normal işləməsi nəticəsində yaranan bu vəziyyət infeksiyaların sayını artırır. Zəif havalandırılan sinif otaqları və izdihamlı məktəb dəhlizləri xəstəliklərə səbəb olur. Valideynlərin uşaqlarını nəzarətdə saxlamaları, öskürək, səs dəyişikliyi, qrip kimi simptomların xəstəlik və ya allergiyadan qaynaqlandığını ayırd etmələri vacibdir. Uşaqları yayıla biləcək infeksion xəstəliklərdən qorumaq üçün müxtəlif tədbirlər görülə bilər.

Bunlardan ən birincisi sağlam qidalanma faktorudur. Məlum olduğu kimi, uşaqların və böyüklərin xəstəliklərdən qorunmasında ən mühüm amil sağlam qidalanma vərdişləridir. Bu sayədə immunitet sistemi güclənəcək və xəstəlik ehtimalı minimuma enəcək. Qızardılmış və yağlı qidalar əvəzinə zeytun yağında bişirilən, asan həzm olunan və tərəvəzlərdən ibarət pəhriz yeməkləri qəbul edilməlidir. Səhər yeməyində pendir, yumurta, süd, bal, yağ, təzə meyvə şirəsi, istəyə görə tərəvəz salatı və ya göyərti istehlak edilməlidir. Qəlyanaltı olaraq qatıq və ya meyvə yeyə bilərsiniz. Şokolad, şirniyyat, cips və buna bənzər qidalar zərərli olduğu üçün mümkün olduğu qədər qaçınılmalıdır. Bundan əlavə, həftədə bir və ya iki dəfə balıq istehlakını vərdiş edin. Balıqdan alınan qida dəyərləri uşağın sağlamlığı və inkişafı üçün vacibdir. Dəniz məhsulları istehlak etmək istəməyən uşaqlar üçün balıqdan başqa tərkibi omeqa 3 ilə zəngin qidalara üstünlük verilə bilər.

İkinci əsas qayda gigiyenadır. Uşaqların ümumi gigiyena qaydalarına riayət etmələrinə diqqət yetirilməlidir. İnsanların sıx olduğu yerlərdə təmas çox olduğu üçün uşaqlar əllərini yumaq vərdişini qazanmalıdırlar. Uşaqlara əl, üz, ayaq və bədən təmizliyinə fikir verməyi öyrətmək lazımdır. Mikroblu xəstəliklər riskini minimuma endirmək üçün tez-tez duş qəbul etməlidirlər. Məktəblərdə tez-tez əl yuma ilə bağlı məhdudiyyət varsa onlara nəsə yeməzdən öncə əllərini nəm dəsmalla silməyi öyrətmək şərtdir.

Məktəbli uşaqları xəstəliklərdən qorumaq üçün onların mövsümə uyğun geyinməsinə də diqqət yetirilməlidir. Çox qalın və ya çox nazik paltarlar yerinə günün hava şəraitinə uyğun geyindirmək lazımdır. Uşağın paltarı ətraf mühitin temperaturuna uyğun formalaşdırılmalıdır ki, nə üşüməsin, nə də tərləməsin. Sinif otaqlarını və uşaqların ən sıx toplaşdığı yerləri mütəmadi olaraq havalandırmaq da vacibdir.

Xəstə uşaqlar üçün edilən ən böyük səhvlərdən biri də onları məktəbə göndərməkdir. Bu, uşağın dincəlməməsinə və xəstəliyin digər uşaqlara keçməsinə səbəb olacaq. Uşağın təhsilindən geri qalmaması üçün xəstəliyin səviyyəsi həkim tərəfindən müəyyən edilməli və lazımi müalicə fasiləsiz aparılmalıdır. Xüsusilə yoluxucu xəstəlikləri olan, yüksək hərarəti olan uşaqlar məktəbə göndərilməməlidir. Bundan əlavə, uşağa virusu yaya biləcək fəaliyyətlərdən çəkinməyi öyrətmək lazımdır. Məsələn, uşağa öskürmə və ya asqırma zamanı ağzını dəsmal, ya da qolu ilə bağlaması qaydası göstərilməlidir.

***Lalə Mehralı***

# Paşinyanın "təşəbbüs" və "layihə" kimi irəli sürdüyü UTOPİYA

***İndiyə qədər heç bir vədinə əməl etməyən, hətta imza atdığı sənədlərə, ələlxüsus da Üçtərəfli Bəyannamənin müddəalarına görə cavabdehlik daşıdığını belə nəzərə almayan, bunun əvəzinə manipulyasiyalar edən Ermənistanın baş naziri Nikol Paşinyanın davamlı şəkildə avantüraya əl atmasının hər dəfə eskalasiyaya səbəb olduğu bəllidir və davranışlarından, tərzindən, eləcə də xəyallarından belə görünür ki, indi də yeni "təşəbbüs", yeni "layihə" ilə çıxış edən bu avantürist nəticə çıxarmaq fikrində deyil.***




Qarabağda silahlı birləşmələrin fəaliyyətinə son qoyulması barədə Üçtərəfli Bəyannamənin şərtlərini üç il ərzində qulaq ardına vuran, qanunsuz erməni silahlı dəstələrinin Azərbaycan ərazisindən çıxarılması barədə rəsmi Bakının tələbinə məhəl qoymayan erməni baş nazir, artıq Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə keçirilən antiterror tədbirləri ilə həmin silahlı dəstənin tərksilah edilməsindən sonra, ölkəmizin bölgədə yaratdığı yeni reallığı gördüyü, Azərbaycanın öz məqsədlərinə nail olduğunu bir daha müşahidə etdiyi zaman yeni təşəbbüslərdən, regional layihələrdən dəm vurmağa başlayıb. Amma görünən odur ki, hələ də xəyallar aləmindən yaxa qurtara bilməyən Paşinyanın "təşəbbüsləri" utopiyadan başqa bir şey deyil, çünki dedikləri nə özünün, nə də ölkəsinin potensial imkanlarına heç də uyğun gəlməyən uydurma olaraq qiymətləndirilir.

Gürcüstan, Azərbaycan və Ermənistanın baş nazirlərinin iştirakı ilə Tbilisidə keçirlən İpək Yolu Beynəlxalq Forumunda sülh üçün "özünəməxsus" tezislərini səsləndirən və "Sülh kəsişməsi" adı altında təqdim etdiyi layihədə kommunikasiyaların açılmasını da, iqtisadi, siyası, mədəni məsələləri də vahid bir paketdə göstərən Nikol Paşinyan yenə də xəyallar aləminə baş vurub. Əslində, o özünü elə göstərib ki, guya Ermənistanın yeni yanaşmasını təqdim edib, amma görünən odur ki, dedikləri cəfəngiyyatdır. Erməni baş nazirin dedikləri ona görə cəfəngiyyat kimi səslənir ki, təkliflərinin reallaşdırılması ilə Ermənistanın imkanları qətiyyən üs-üstə düşmür və xeyli şübhələr doğurur. Ümumiyyətlə, bu vaxta qədər İrəvanın hansına bir layihədə "payının" olmamağını da nəzərə aldıqda bəlli olur ki, Ermənistan tərəfinin, ələlxüsus da baş nazir Paşinyanın boş danışıqlardan başqa heç nəyə gücü çatmır. Görünür elə ona görə də təxəyyülündə canlandırdığı xəyallarını ortaya atmaqdan başqa çarə görmür.

Məsələ burasındadır ki, Bakı və Ankaranın məhz İran marşrutu ilə dəhlizin aparılmasını gündəmə gətirməsi rəsmi İrəvanı kifayət qədər silkələyib və Paşinyan da, onun hakimiyyət komandası da bundan narahat olmağa başlayıb. Ona görə ki, Zəngəzur dəhlizindən tamamilə imtina etməyin, yaxud həmin dəhlizdən məhrum olmağın Ermənistan üçün ciddi itgilər vəd etdiyinin artıq ermənilər fərqindədirlər. Fərqindədirlər ki, yenə də marginallaşmış vəziyyətdə qalmaları davam edə bilər. Məhz bu səbəbdən də Ermənistan tərəfi öz mövqeyində müəyyən "korrektə" etməklə, nəyə isə nail olmaq niyyətinə düşüb. Amma hər bir halda, erməni baş nazirin dedikləri qətiyyən reallıqla uzlaşana oxşamır və kommunikasiyaların açılması üçün indiyə qədər heç bir addım atmamasının, ələlxüsus da ölkəsinin maliyyə cəhətdən bunları qarşılamaq potensialında olmamasının fonunda onun dedikləri, irəli sürdüyü təşəbbüslər ancaq utopik xarakter daşıya bilər.

Üçtərəfli Bəyannamənin şərtlərinə uyğun olaraq, şəxsən baş nazir Nikol Paşinyanın imzası ilə Ermənistan tərəfinin öz üzərinə "Zəngəzur dəhlizi" ilə bağlı öhdəlik götürdüyü təkcə bizim üçün yox, Rusiya tərəfi üçün də, Qərb ölkələri üçün də, beynəlxalq təşkilatlar üçün də, dünya ictimaiyyəti üçün də sirr deyil və məhz rəsmi İrəvanın prosesə mane olması, pozuculuq fəaliyyəti, məsələni gah qulaq ardına vurması, gah da bunu danması səbəbindən dəhlizlə bağlı işlərin bu vaxta qədər gecikməsi də hamıya bəllidir. Bəllidir ki, "Zəngəzur dəhlizi" ilə bağlı öhdəlikdən Ermənistan tərəfi boyun qaçırıb və üç il müddətində rəsmi İrəvan bu istiqamətdə bircə addım belə atmayıb. Maraqlıdır ki, bütün bunların fonunda Paşinyan hansı üzlə layihə, yaxud təşəbbüs irəli sürür və hansı əsasla, hansı məntiqə əsaslanaraq, bunun qəbul olunacağını düşünür? Ümumiyyətlə, Üçtərəfli Bəyannaməyə imza ataraq, üzərinə öhdəlik şəklində götürdüklərinə əməl etmədiyi halda, onun bir forumda səsləndirdiyi layihəni, təşəbbüsü hamının qəbul edəcəyinə ümid etməyə belə haqqı çatırmı? Əlbəttə ki, çatmır və elə buna görə də onun dedikləri xəyal olaraq, utopiya olaraq qəbul olunur və heç özü də dediklərinin reallaşacağına inanmır.

Nikol Paşinyan özünü nə qədər axmaq yerinə qoysa belə, nə qədər ağılsız kimi göstərsə belə, istənilən lahiyə və yaxud təşəbbüsün reallaşması üçün maliyyə vəsaiti tələb olunduğunu bilir. Onu da bilir ki, hansısa layihəni irəli sürdükdən sonra onun reallaşması üçün müvafiq miqdarda maliyyə vəsaiti barədə də, ən azından düşünmək məcburiyyətindədir. Amma görünən odur ki, Vovayeviç bu barədə heç düşünməyib də. Əks halda belə bir təşəbbüslə bağlı səsini də çıxarmazdı, çünki irəli sürdüyü təşəbbüsün reallaşması üçün maliyyə məsrəflərinə ölkəsinin imkanı olmadığını hamıdan yaxşı özü bilir. Bilir ki, irəli sürdüyü layihə yüzlərlə kilometr yolun, dəmiryolunun çəkilməsini tələb edir və bunun üçün də ilk növbədə maliyyə vəsaiti ayrılmalıdır, hansıki bu maliyyə vəsaiti də onun səfalət içərisində olan ölkəsi üçün ən böyük problemlərdən biridir. Bu isə o deməkdir ki, Paşinyan bunları bilə-bilə hansısa layihədən, təşəbbüsdən danışmaqla ən azından xəyalpərəstlik edir. Dediklərinin isə utopiyadan başqa bir şey olmadığını özü də yaxşı başa düşür və hamıdan əvvəl bunu özü bilir.

Hələ bu vaxta qədər ən qısa yolun belə çəkilişini həll edə bilməyən Ermənistanın baş nazirinin yüzlərlə kilometr yolun çəkilişi, yeni layihə, yeni təşəbbüs barədə ağız dolusu danışması çox gülüncdür. Uzun illərdir İrandan magistral yol, dəmiryol xətti çəkmək istəyən Ermənistanın sonda, bunun üçün vəsaitinin olmamasını etiraf etməsi fonunda baş nazir Paşinyanın Tbilisidə keçirlən İpək Yolu Beynəlxalq Forumunda müvafiq təşəbbüslə çıxış etməsi, əlbəttə ki, gülünc olmaya bilməz, çünki ən qısa yolun çəkilişinə imkanı olmayan bir ölkənin rəhbəri dəfələrlə uzun yolun çəkilişindən utanmadan dəm vurur. Digər tərəfdən də, fakt bundan ibarətdir ki, regionun dağlıq relyefi bu tip layihələrin reallaşması məsrəflərini daha da artırır və az miqdarda vəsaitin öhdəsindən gələ bilməyən ölkənin daha artıq maliyyə vəsaiti tələb edən lahiyə ilə çıxış etməsi yenə də Nikol Paşinyanın dediklərinin, təşəbbüsünün utopiya olduğu qənaətinə gəlmək üçün əsas verir. Çünki Paşinyan nə qədər ağılsız olsa belə, dağlıq relyefi olan ərazilərdə yolların çəkilməsinə daha çox vəsait tələb olunduğunu başa düşməyə, bilməyə bilməz.

Ən çox diqqəti cəlb edən, sual doğuran isə, hal-hazırki dövrə qədər nəinki qlobal, hətta bircə dənə də olsa regional layihəni belə həyata keçirməyən Ermənistan tərəfinin çox böyük bir layihə və təşəbbüslə çıxış etməsidir. Hər halda ilk layihə olaraq, məsuliyyətini də olsa baş nazir başa düşməli idi. Hansısa hesablama da olsa aparmalı və ölkəsinin mövcud vəziyyətini, durumunu da bu hesablamalar zamanı nəzərə almalı idi. Belə çıxır ki, Nikol bununla bağlı nə bir hesablama aparmayıb, nə də maliyyə mənbələri barədə heç düşünməyib. O zaman Nikol Paşinyanın təşəbbüsünə, layihəsinə nə ad vermək olar? Bunun ən yaxşı halda, boş sözdən ibarət olduğu qənaətinə gəlmək doğru deyilmi? Əlbəttə ki, doğrudur və baş nazirin belə boş danışığı, məhz irəli sürülən təşəbbüsün də, layhənin də onun xəyalı olduğunu, utopiya olduğunu ortaya qoyur.

Tarixi faktlara nəzər saldıqda da görürük ki, haylar bu vaxta qədər hansısa dövlətin himayəsi altında öz mövcudluqlarını belə güclə qoruya biliblər. Məhz elə himayə altında haylar özlərinə məxsus olmayan torpaqlarda məskunlaşaraq, elə kimlərinsə himayəsi ilə də dövlət qurublar. Hayların bu dövlət adlandırdığının müstəqilliyindən söhbət gedə bilmədiyi halda, özlərini suveren adlandırsalar da, hələ də daxili ehtiyaclarını belə parazit kimi, başqalarının hesabına, başqa dövlətlərin, güclərin maliyyəsi hesabına qarşılayırlar. Ermənistanın sərhədlərini də özü yox, başqa ölkə qoruyur və sınıqsalxaq hərbi texnikaları, arsenalı, imkanları belə pulsuz silah-sursat verilməsi hesabına təmin olunur. Ermənistan barədə danışarkən belə, hansısa təbii ehtiyatlardan, iqtisadi fəaliyyətdən söz açmaq mümkün deyil. Eyni zamanda, sənayesi, kənd təsərrüfatı, ümumilikdə, istehsal sahələri də olmayan bir ölkəyə maliyyə axını ancaq xaricdəki diaspora xəttindəndir və bu dövlətin daxilində ən xırda layihələr belə dövlət tərəfindən deyil, məhz həmin o diaspora təşkilatları, yaxud onların təsiri altında olanlar tərəfindən maliyyələşdirilir. Belə olan halda, Nikol Paşinyana sual oluna bilər ki, bəs irəli sürdüyü bu boyda layihənin pulunu, yəni həmin layihə və təşəbbüsün reallaşdırılması üçün lazım olan maliyyə vəsaitlərini önun ölkəsi ödəyə bilərmi? Sözsüz ki, ödəyə bilməz. O zaman Ermənistan adlı bir ölkənin baş naziri nədən dəm vurur və görəsən bu xəyalpərəstin uydurmaları bir sərhəd tanıyır, yoxsa yox? Hətta öz ölkəsində bircə dənə xırda layihəni belə rəhbərlik etdiyi dövlətin maliyyələşdirə bilməməsi fonunda, regional, yaxud da qlobal layihələr, təşəbbüslər barədə ağız dolusu danışmaq, qısa şəkildə desək, elə utopiyadır və layihə, yaxud təşəbbüs deyilənin Nikol Paşinyana da, Ermənistana da qətiyyən aidiyyəti belə yoxdur və heç zaman da olmayacaq.

***İnam Hacıyev***

# "3+3" formatı: reallıq, yoxsa siyasət?

RAKURS





## "Altılar" Cənubi Qafqazı necə inkişaf etdirə bilərlər?

Üç Qafqaz dövlətinin - Ermənistan, Azərbaycan və Gürcüstan və onların qonşularının - Rusiya, İran və Türkiyənin birgə fəaliyyətini nəzərdə tutan "3+3" formatında iştirak edən ölkələrin xarici işlər nazirlərinin ilk görüşü Tehranda baş tutdu. Eyni zamanda, əvvəllər olduğu kimi, Tbilisi təşəbbüsdə iştirak etmək istəmədi, ona görə də "de-fakto" görüş "2+3" formatında baş tutdu. İkinci Qarabağ müharibəsindən sonra Türkiyə və Azərbaycanın Rusiya Federasiyası ilə birgə təklif etdiyi əməkdaşlıq mexanizmi regionda baş verən köklü dəyişikliklər fonunda getdikcə populyarlaşır. Bunlardan başlıcası Qarabağda Azərbaycanın suverenliyinin tam şəkildə bərpa edilməsi və Ermənistanın Qərbə üz tutmasıdır. Bu proseslər həm inkişaf üçün yeni imkanlar, həm də regiondankənar oyunçular tərəfindən yeni müdaxilə riskləri yaradır.

Tehranda "3+3" formatında iştirak edən ölkələr arasında iki ilə yaxındır fəaliyyət göstərməyən dialoq mexanizminin yenidən işə salınması üçün nəzərdə tutulan danışıqlar bir sıra ikitərəfli görüşlərlə də müşayiət olunub. Belə ki, Sergey Lavrov İranın xarici işlər naziri Hüseyn Əmir-Abdollahianla görüşüb, müzakirələr aparıb və prezident İbrahim Rəisi ilə görüşüb. Raisi həmçinin Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramovu qəbul edib. Danışıqlardan sonra Ermənistan Xarici İşlər Nazirliyi İranla münasibətləri təsvir edərək bəyan edib: "İki qonşu və dost ölkə arasında qarşılıqlı hörmətə və iki xalqın min illik qardaşlığına əsaslanan yüksək səviyyəli siyasi dialoq formalaşıb". Cənab Bayramovla söhbətdən sonra İran liderinin mətbuat xidməti bildirib ki, İran İslam Respublikasının qonşu dövlətlər arasında danışıqları və dialoqu həmişə regional problemlərin həlli yolu kimi qəbul edilir. Prezident ümidvar olduğunu bildirib ki, danışıqlarda Qafqaz üzrə Əməkdaşlıq Qrupunun iclası ("3+" formatı 3 – müəllif) konstruktiv əməkdaşlığın və regional qarşılıqlı fəaliyyətin gücləndirilməsi mənbəyinə çevriləcək". İbrahim Rəisi vurğulayıb ki, regionun problemləri xarici qüvvələrin müdaxiləsi ilə həll edilə bilməz.

Sergey Lavrov hələ ötən ilin iyununda nazirlər səviyyəsində görüşə hazırlıq barədə məlumat vermişdi. Bundan sonra Rusiya Xarici İşlər Nazirliyi görüşün yaxın aylarda baş tutacağını gözləyirdi, lakin danışıqlar tez başlamadı. İki "üçlük" - "Rusiya, Türkiyə, İran" və "Azərbaycan, Ermənistan, Gürcüstan" formatında əvvəlki və bundan əvvəl yeganə görüş 2021-ci ilin dekabrında Moskvada Rusiya, Azərbaycan Xarici İşlər nazirlərinin müavinləri, Ermənistan, Türkiyə və İranın isə Xarici İşlər Nazirliyinin baş direktorları səviyyəsində keçirilib. Eyni zamanda, o vaxt da görüşə dəvət olunan Gürcüstan "altılıq"da öz yerini görmək istəmədi. Tbilisi regional inteqrasiya ideyasını rədd etmir, lakin onlar alternativ model təklif edirlər: "3+3" deyil, sadəcə olaraq "3" formatında danışıqlar.

Öz növbəsində, "3+3" formatında təhlükəsizlik problemlərinin həlli və Cənubi Qafqazın inkişafı mexanizminin yaradılması təşəbbüsü 2020-ci il noyabrın 10-da başa çatan ikinci Qarabağ müharibəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatı imzalanması ilə Ankara və Bakı tərəfindən irəli sürülüb. Moskvanın fəal şəkildə dəstəklədiyi altıtərəfli platformanın ideyası üç Cənubi Qafqaz respublikasını regionda ən böyük təsirə malik olan üç güclə (Rusiya, Türkiyə, İran) birləşdirməyə qadir inteqrasiya platforması əldə etməkdir.

Güman edilirdi ki, yeni format nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasını sürətləndirəcək, daha sıx əməkdaşlığa kömək edəcək və ən əsası, regiondankənar oyunçuları cəlb etmədən yerli problemləri həll etməyə imkan verəcək. Buna baxmayaraq, nazirlərin Tehranda keçirilən ilk görüşünə qədər Cənubi Qafqaz üçün altıtərəfli format bir sıra səbəblərdən fəaliyyətsiz qaldı. Əsas olanlar, xarici oyunçuların oynamağa başladığı "altılığın" üzvləri arasında çoxsaylı fikir ayrılıqları və sürtünmələr idi. Belə ki, indiyədək sülh müqaviləsinin şərtləri ilə bağlı razılığa gələ bilməyən İrəvanla Bakı arasında münasibətlərdə gərginliyin davam etməsi ilə üst-üstə düşüb.

Bakı ilə Tehran arasında münasibətlər yanvarda İranın paytaxtında Azərbaycan səfirliyinə silahlı hücumdan sonra ən aşağı həddə düşmüşdü. Lakin oktyabrın əvvəlində Azərbaycan prezidentinin köməkçisi Xələf Xələfov Tehrana səfər edib və bundan az sonra tərəflər Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin tezliklə bərpa olunacağını bəyan ediblər. Beləliklə, Tehran və Bakı regional əməkdaşlıq nümunəsi nümayiş etdirirlər. "Altılıq"ın İranın paytaxtında keçirilən görüşü ərəfəsində Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri Mehrdad Bəzrpaş İran ərazisindən keçəcək Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələri bərpa edəcək yeni dəmir yolu xəttinin tikintisinə dair niyyət protokolu imzalayıblar.

Görüşdə həmçinin "Xudafərin", "Qız-Qalası" və "Ordubad-Marazad" su elektrik stansiyalarının tikintisi layihələrinin tezliklə başa çatdırılması istiqamətində işlərin sürətləndirilməsinin vacibliyi qeyd edilib. Bundan əlavə, tərəflər Araz çayı üzərindən avtomobil sərhədi körpüsünün və piyada keçidinin tikintisi ilə bağlı sənədlər imzalayıb, həmçinin Astara yük terminalının tikintisinin tez bir zamanda başa çatdırılması ilə bağlı tapşırıqlar veriblər. Sergey Lavrov hələ ötən ilin iyununda nazirlər səviyyəsində görüşə hazırlıq barədə məlumat vermişdi. Bundan sonra Rusiya Xarici İşlər Nazirliyi görüşün yaxın aylarda baş tutacağını gözləyirdi, lakin danışıqlar tez başlamadı. İki "üçlük" - "Rusiya, Türkiyə, İran" və "Azərbaycan, Ermənistan, Gürcüstan" formatında əvvəlki və bundan əvvəl yeganə görüş 2021-ci ilin dekabrında Moskvada Rusiya, Azərbaycan Xarici İşlər nazirlərinin müavinləri, Ermənistan, Türkiyə və İranın isə Xarici İşlər Nazirliyinin baş direktorları səviyyəsində keçirilib. Eyni zamanda, o vaxt da görüşə dəvət olunan Gürcüstan "altılıq"da öz yerini görmək istəmədi. Tbilisi regional inteqrasiya ideyasını rədd etmir, lakin onlar alternativ model təklif edirlər: "3+3" deyil, sadəcə olaraq "3" formatında danışıqlar.

Öz növbəsində, "3+3" formatında təhlükəsizlik problemlərinin həlli və Cənubi Qafqazın inkişafı mexanizminin yaradılması təşəbbüsü 2020-ci il noyabrın 10-da başa çatan ikinci Qarabağ müharibəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatı imzalanması ilə Ankara və Bakı tərəfindən irəli sürülüb. Moskvanın fəal şəkildə dəstəklədiyi altıtərəfli platformanın ideyası üç Cənubi Qafqaz respublikasını regionda ən böyük təsirə malik olan üç güclə (Rusiya, Türkiyə, İran) birləşdirməyə qadir inteqrasiya platforması əldə etməkdir.

Bakı ilə Tehran arasında münasibətlər yanvarda İranın paytaxtında Azərbaycan səfirliyinə silahlı hücumdan sonra ən aşağı həddə düşmüşdü. Lakin oktyabrın əvvəlində Azərbaycan prezidentinin köməkçisi Xələf Xələfov Tehrana səfər edib və bundan az sonra tərəflər Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin tezliklə bərpa olunacağını bəyan ediblər. Beləliklə, Tehran və Bakı regional əməkdaşlıq nümunəsi nümayiş etdirirlər. "Altılıq"ın İranın paytaxtında keçirilən görüşü ərəfəsində Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri Mehrdad Bəzrpaş İran ərazisindən keçəcək Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələri bərpa edəcək yeni dəmir yolu xəttinin tikintisinə dair niyyət protokolu imzalayıblar.

Eyni zamanda, "3+3" formatında keçiriləcək görüşdən bir müddət əvvəl Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Tehrana səfər edib. O, Hossein Amir-Abdollahian ilə danışıqlar aparıb. İranlı nazir görüş zamanı Ermənistan-Azərbaycan münaqişəsində növbəti vasitəçi olmaq ambisiyalarını nümayiş etdirib. "Mən vurğuladım ki, Qafqazdakı böhran yalnız yerli oyunçuların və region ölkələrinin iştirakı ilə, yeni "3+3" formatında həll oluna bilər", - deyə cənab Əmir-Abdollahian sosial şəbəkədəki səhifəsində yazıb. "Fars" agentliyi yazır ki, Tehranda danışıqlar zamanı Armen Qriqoryan da Bakı ilə münaqişənin "3+3" formatında həllinin mümkünlüyünü alqışlayıb. Tehranda nazirlərin görüşü regionda baş verən dramatik dəyişikliklər fonunda baş tutub. Əsas odur ki, Bakının Qarabağ üzərində suveren hüquqlarını bərqərar etməsindən sonra separatçılar "hakimiyyəti" ləğv etdiyini bəyan ediblər. Azərbaycan prezidenti İlham Əliyev ölkənin ərazi bütövlüyünün tam bərpa olunduğunu elan etdikdən sonra sentyabrın 24-dən ayın sonuna kimi məhz separatçıların təhriki və əksər hallarda zorla ermənilər Qarabağdan Ermənistana köçüblər.

Belə bir şəraitdə "3+3" formatında görüşə ev sahibliyi edən İran tərəfi regionda qonşular arasında münasibətlərdə qayığı silkələmək deyil, diqqəti hamının maraqlarına cavab verən inkişaf layihələrinin həyata keçirilməsinə yönəltmək istəyini nümayiş etdirdi. "Biz beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsinin və regionda geosiyasi düzəlişlərin əleyhinəyik. Biz region ölkələrinin maraqlarını təmin etmək, onların inkişafına və sakinlərinin rifahına kömək etmək üçün nəqliyyat marşrutlarının və yol şəbəkələrinin inkişafını dəstəkləyirik. Biz Azərbaycan və Ermənistanın ərazi bütövlüyünü dəstəkləyirik", - deyə İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasser Kanani Chafi bildirib. Eyni zamanda, o, qonşular arasında mübahisələri "siyasi proses və regional potensialı əhatə edən ikitərəfli danışıqlar" yolu ilə həll etməyə çağırıb.

Moskvada hesab edirlər ki, Tehranın mövqeyi onlara yaxındır. Rusiya Xarici İşlər Nazirliyi Cənubi Qafqazda nizamlanmada Qərb vasitəçilərinin yeri olmadığını açıq şəkildə ifadə etməkdə davam edir. Eyni zamanda, Kreml hələ də Ermənistan-Azərbaycan nizamlanması üçün ən uyğun platformanın Rusiya olduğunu müdafiə edir. Üç aparıcı regional gücün - Rusiya, Türkiyə və İranın Cənubi Qafqazda strateji maraqları tam üst-üstə düşməsə də, xarici oyunçuların regional işlərə cəlb edilməsi riskinin getdikcə artması onları birləşməyə sövq edir. Son hadisələr göstərir ki, Qərb regional ekspansiyasında Ermənistana arxalanır. Bunu nəzərə alsaq, əsas sual ondan ibarətdir ki, region ölkələri "3+3" formatını hələ də Avroatlantik oriyentasiyadan vaz keçmək niyyətində olmayan İrəvan üçün kifayət qədər cəlbedici edə biləcəkmi?

Tehrandakı görüşün sonunda Ankara və Bakının təklif etdiyi altıtərəfli regional əməkdaşlıq formatına İrəvanın münasibəti ilə bağlı sualı cavablandıran Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan tərəfinin münasibətini "müsbət" adlandırıb. Eyni zamanda, o, Bakı ilə İrəvan arasında münasibətlərdə baş verən dəyişikliklərə xüsusi diqqət çəkib ki, bu, Moskvanın fikrincə, irəliləyişdən danışmağa və Ermənistan və Azərbaycan arasında münaqişənin uzunmüddətli nizamlanmasına dair gələcək razılaşmalar üçün ilkin şərtlər yaratmağa imkan verir.

**V.VƏLİYEV**

# Sərhəd tanımayan Azərbaycan-Türkiyə qardaşlığı!

***İLHAM ƏLİYEV: «Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik»***



Bəli, bu dünyada analoqu olmayan və sərhəd tanımayan qardaşlığın, ulu öndər Heydər Əliyevin söylədiyi "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi. Və bu gün iki güclü Liderlərin – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şad gündə, dar gündə bir-birinin yanında olması bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan və Türkiyə bundan sonra da bir olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Və bu əbədi və sarsılmaz qardaşlıq birliyi ilə Cümhuriyyətin 100 illik yubileyi günündə hər iki qardaş dövlətlərin xalqları olaraq böyük Atatürkü və Türkiyə Cümhuriyyətinin qurulmasında canını, qanını əsirgəməmiş türk qəhrəmanlarını ehtiramla yad edirik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda əbədiliyin, qardaşlığın, sarsılmaz birliyin nə qədər yüksək olduğu yer alıb. Məktubda bildirilir ki, bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olmuş, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırmışdı.

### «İSTİQLALINA ŞƏHİDLƏRİNİN CANI VƏ QANI BAHASINA QOVUŞAN TÜRKİYƏ YÜZ İL SONRA DÜNYADA ƏSAS SÖZ SAHİBLƏRİNDƏN BİRİ OLAN QÜDRƏTLİ DÖVLƏTDİR»

«İstiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Respublikası yüz il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir». Bu sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda yer alıb.

Dövlətimizin başçısı məktubunda, həmçinin qeyd edib: "Atatürkün əmanəti olan qardaş Türkiyənin son iyirmi ildə inkişaf tempi, dünya çapında ən öndə duran ordudan tutmuş yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir».

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyduğumuzu vurğulayan Azərbaycan Prezidenti bildirib: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir».

### «TARİXƏN OLDUĞU KİMİ, AZƏRBAYCAN VƏ TÜRKİYƏ XALQLARI BU GÜN DƏ BİR-BİRİNİN YANINDADIR»

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda o da bildirilir ki, tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz (Rəcəb Tayyib Ərdoğan – red.) başda olmaqla, qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaq: «Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir.

Bu tarixi gündə qardaş Türkiyə xalqının sevincinə qoşulduğunu bildirən Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğana möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətində müvəffəqiyyətlər, Türkiyə Respublikasına daim rifah, firavanlıq və yüksəliş arzulayıb.

### BU GÜN TÜRKİYƏ VƏ TÜRK DÖVLƏTLƏRİNİN BİRGƏ SƏYİ İLƏ ŞANLI TARİX ÜZƏRİNDƏ BÖYÜK GƏLƏCƏK QURULUR

Bundan tam 100 il əvvəl, oktyabrın 28-də türk xalqının ulu öndəri Qazi Mustafa Kamal Atatürk ölkə rəsmilərini Çankaya köşkündə axşam yeməyinə toplayaraq məşhur, "Əfəndilər, sabah cümhuriyyəti elan edəcəyik" sözlərini işlədir. Təqvim cümə günü, 1923-cü il 29 oktyabr tarixini göstərdikdə isə insanlarla dolu parlament binasına daxil olan Atatürk bir neçə görüş keçirdikdən sonra məclis kürsüsünə çıxaraq "Suverenlik qeyd-şərtsiz millətə məxsusdur" sözləri ilə Türkiyə Cümhuriyyətini elan edir. Binaya toplaşanlar bu ifadəni "Yaşasın Cümhuriyyət" şüarı və alqışlarla qarşılayırlar. Bunun ardından, "Türkiyə dövlətinin idarətmə şəkli respublikadır" başlıqlı qanun layihəsi və Qazi Mustafa Kamal Paşanın yeni Türkiyə dövlətinin ilk prezidenti seçilməsi təklifi Türkiyə Böyük Millət Məclisinə təqdim edilir və 158 parlament üzvünün səs birliyi ilə qəbul olunur.

Yarandığı gündən ədaləti, demokratiyanı, insan hüquqlarını və bərabərliyi özünə rəhbər tutan Türkiyə dövləti təhsil, nəqliyyat, idman, infrastruktur, mədəniyyət kimi müasir dünyanın ehtiyaclarına cavab verən bütün sahələri sürətli inkişaf etdirməyə çalışır. Ölkədə böyüməni sürətləndirmək və sənayeləşməni təşviq etmək üçün iqtisadi siyasətdə dəyişikliklər edilir. Sənaye istehsalı və ixracatın əhəmiyyəti artır. Bir sıra iqtisadi islahatlar və modernləşmə təşəbbüsləri həyata keçirilir. Kənd təsərrüfatı strukturunun dəyişdirilməsi, infrastrukturun inkişafı, yeni sənaye sahələrinin yaradılması kimi məsələlər ön plana çıxır. Bütün bunlarla yanaşı, ötən yüz ildə ölkə hərbi çevrilişlər, terror, iqtisadi böhranlar, xarici borclar, təbii fəlakətlər kimi bir çox imtahanlardan keçir. Böyük mübarizələrlə ötən bu bir əsrin tamamında, bu gün Türkiyə dünyanın ən qabaqcıl ölkələrindən birinə çevrilib.

Bu gün isə, Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyində keçən son iyirmi il ərzində hər sahə üzrə inkişafını tam sürətlə davam etdirən və iri addımlarla yeni hədəflərə doğru irəliləyən qardaş ölkə Türkiyə bu gün yeni əsrinə böyük qürurla qədəm qoyur.

### TÜRKİYƏ VƏ AZƏRBAYCAN, HƏMÇİNİN 102 İL GECİKMİŞ BİR SƏNƏDİ – ŞUŞA BƏYANNAMƏSİNİ İMZALADILAR

Bəli, Azərbaycan-Türkiyə birliyi və qardaşlığı əbədi və sarsılmazdır. Bu birliyin nəticəsini biz 2020- ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinin ilk günündən Qələbə Zəfərinə kimi Türkiyə daim bizimlə bir olub. Sevincimizə, kədərimizə şərik olub. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasətilə Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası 2020-ci 10 dekabr tarixində Zəfər parada qardaş Türkiyə Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların iştirakı Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının daha bir əyani nümunəsi oldu. İşğaldan azad edilən ərazilərimizə ilk səfər edən qardaş Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın olması iki qardaş ölkənin münasibətlərinin möhkəm təmələ malik olduğunun, Türkiyə-Azərbaycan dostluq və qardaşlığının dünyaya bir nümunə, örnək olduğunun göstəricisidir.

Digər ən mühümü isə, 15 iyun, 2021-ci il - Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq iki güclü liderlərin - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin işğaldan azad olunmuş Qarabağımızın baş tacı olan Şuşada Türkiyə və Azərbaycan, həmçinin 102 il gecikmiş bir sənədi – Müttəfiqlik haqqında Şuşa Bəyannaməsini imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda bildirir ki, biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir: «Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik».

Məhz bu əsrlərə bağlı olan bu birlik, dostluq və qardaşlıq münasibətlərin növbəti təzahürü isə, cari ilin iyunun 12-də Türkiyənin 13-cü Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğanın ilk səfərini Şimali Kipr Cümhuriyyətinin ardınca Azərbaycana gerçəkləşdirmə təqvimi, ilk növbədə iki qardaş ölkə arasında münasibətlərin ən yüksək səviyyədə olması, bir millətin iki dövlətin - Azərbaycanla Türkiyənin sarsılmaz birliyinin, bu münasibətlərin maraqlara deyil, dəyərlərə əsaslanmasının dünyaya bir mesajı olmaqla, öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına güclü ölkənin güclü liderlərinin bu dəyərlərin gücü ilə çıxmaları və onlara öz yerlərini göstərmələridir. Və bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Bəli, bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq. Çünki Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülhdür! Sabitlik və İnkişafdır!

Bir sözlə, Azərbaycan və Türkiyə qardaşlığı bölgəyə sabitlik gətirməklə yanaşı, bu birlik həm də regional güc kimi mühüm əhəmiyyətə malikdir. Bu gün öz liderlərinin sayəsində hər iki ölkə bütün dünyada böyük uğurlar əldə edən, prinsipial siyasət yürüdən güc kimi tanınırlar. Artıq şübhə yoxdur ki, iki xalq və dövlət arasındakı qardaşlıq daimidir və yaxın vaxtlarda biz hər iki ölkənin növbəti uğurlarına şahidlik edəcəyik.

Və bu gün bu tarixi gündə Azərbaycan xalqı da qardaş Türkiyə xalqının sevincinə qoşulur, uğurları ilə fəxr edir, onun hər bir uğurundan qürur hissi keçirir. Cümhuriyyət Bayramın mübarək, qardaş Türkiyə!

***RƏFİQƏ KAMALQIZI***

***Dünya liderləri sırasında müdrikliyi, siyasi bacarığı, uzaqgörən qətiyyətli qərarları ilə seçilən Azərbaycanın görkəmli dövlət xadimi Ulu Öndər Heydər Əliyev qısa zaman məsafəsində dövlət müstəqilliyimizin təməlini möhkəmlədərək, onu məhv olmaq təhlükəsindən xilas edərək xalqın xilaskarı və Azərbaycanın Memarı və Qurucusu kimi adını tariximizin silinməz səhifəsində əbədiləşdirdi.***



# Azərbaycanın əbədiyaşar memarı HEYDƏR ƏLİYEV

Hələ sovet imperiyası dövrüdə yaşadığımız illərdə Azərbaycanın uğurlu gələcəyini görür və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirirdi. 1969-cu ildə Azərbaycana



*Azər SÜLEYMANOV,
Yeni Azərbaycan Partiyası
Nəsimi rayon təşkilatının sədri,
Tarix üzrə Fəlsəfə Doktoru*

rəhbərlik etməyə başladığı zamanda ölkəmiz ən geridə qalmış respublikalardan biri idi. Belə bir ölkənin yüksəlişlərə nail olması, qısa vaxt ərzində keçmiş İttifaqın ən qabaqcıl respublikaları səviyyəsinə yüksəlməsi təbii ki, Ulu Öndərin siyasətinin məntiqi nəticəsi idi. Totalitar rejimin hökmranlıq etdiyi ziddiyyətlərlə zəngin zamanda Heydər Əliyev qətiyyəti, siyasi gücü ölkəmizin inkişafına yeni prespektivlər açmış oldu. Məhz Heydər Əliyev kimi bir dühanın siyasi, müdrik fəaliyyətinin nəticəsində Azərbaycan quruculuq və inkişaf dövrünü yaşamış oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində, elmi-tədqiqat sahələrində əldə olunan uğurlar ölkəmizin adını yüksəklərə qaldırmış oldu. Hələ Ulu Öndər sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, sərt qadağaların qoyulduğu zamanda bugünki uğurlarımız üçün möhkəm təməl yaratmış oldu. Respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələrinin yaradılması, iri sənaye müəssisələrinin istifadəyə verilməsi əlbəttə ki, həmin dövr üçün əldə olunan ən böyük nailiyyətlər sırasında idi. Ümummilli Liderin zəngin irsini vərəqləyərkən sovet dövründə cəsarətli addım və çıxışları Onun vətənə, torpağa necə bağlarla bağlı olduğunu göstərir.

Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ulu Öndərin Azərbaycan dövləti, xalqı qarşısında olan böyük xidmətlərindəndir. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyev 73-cü maddəni "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" kimi verməyi təklif edib. Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il aprelin 21-də qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında əksini tapıb. Vurğulayaq ki, Ulu Öndər həmin Konstitusiyanı hazırlayan komissiyanın sədri olub və bu işlərə rəhbərlik edirmiş. Sonralar Ulu Öndər çıxışlarının birində bu haqda belə deyirdi ki, yeni Konstitusiyada Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırlayanda bu maddə Moskvada çox böyük etiraza səbəb olub. "Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur", - deyən Heydər Əliyev bildirib ki, o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım:"Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq biz buna nail olduq." Qeyd olunan Konstitusiyada Azərbaycanın dövlət dili Azərbaycan dili kimi yazıldı.

Tarixi dövrə nəzər salsaq görərik ki, iyirminci yüzilliyin 70-ci illərindən başlayaraq, ölkə həyatını əhatə edən bütün sahələrdə qazandığımız uğur və yüksəlişdə fenomen şəxsiyyət Heydər Əliyevin dühası görünür. XX əsrin 90-cı illərində dövlət müstəqilliyimiz məhvolma təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda xalqımızın Ulu Öndəri Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycan ictimai-siyasi həyatına yeni səhifələr açmış oldu. Həmin səhifələr xalqın işıqlı yolunu - tərəqqi və inkişafımızı özündə əks etdirir. Məlum olduğu kimi, dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun təməlləri möhkəmləndi və əbədiliyi təmin olundu.

1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi Azərbaycan yeni mərhələyə qədəm qoymasında əhəmiyyətli rol oynadı. Milli dövlətçiliyimizin konsepsiyasını yaradan Heydər Əliyev ölkədə ictimai-siyasi sabitliyin bərpasına nail oldu. Təbii ki, çox gərgin bir zamanda buna nail olmaq elə də asan deyildi. Ümummilli Lider Heydər Əliyevin siyasi gücü, potensialı ölkədə hökm sürən xaos və anarxiyaya son qoymuş oldu, hərc-mərclik, özbaşınalığın qarşısını aldı, demokratik ab-havanı yaratdı. Müharibə bölgəsində atəşkəsə nail olmaq, yaranmış ictimai-siyasi böhranı aradan qaldırmaq siyasi güc, möhkəm iradə tələb edirdi. Mövcud şəraitdə bütün bunlara, məhz Heydər Əliyev kimi bir siyasi xadim nail ola bilərdi. Heydər Əliyev 15 iyun 1993-cü ildə Milli Məclisdə çıxışında belə qeyd etmişdir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam." Heydər Əliyev dühası buna nail oldu. Azərbaycan inkişaf yoluna qədəm qoydu. 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi olan "Əsrin Müqaviləsi"nin imzalanması Ümummilli Lider Heydər Əliyevin beynəlxalq miqyasdakı etimadından, Azərbaycanda yaratmış olduğu sabit, təhlükəsiz mühitdən irəli gəlirdi. Azərbaycanın zəngin təbii sərvətlərindən xalqının rifahı üçün istifadə edildi. Regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. Ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı.

1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyasının referendum yolu ilə qəbul edilməsi, demokratik islahatların həyata keçirilməsi Ulu Öndər Heydər Əliyevin qətiyyəti, siyasi görüşləri nəticəsində reallığa çevrildi. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanların açılması kimi xarakterizə olunur. "Müstəqilliyi əldə etmək siyasi nöqteyi-nəzərdən o demək deyil ki, müstəqillik tamamdır və dönülməzdir. Müstəqilliyi inkişaf etdirmək, möhkəm saxlamaq, bütün sahələrdə tətbiq etmək lazımdır" - deyən Ulu Öndər Heydər Əliyev bildirmişdir.

2003-cü ilin oktyabrından Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Onun quruculuq və inkişaf xəttinin uğurla davam etdirən Cənab İlham Əliyevin hələ 2003-cü ildə Prezident seçkiləri ərəfəsində qeyd etdiyi fikirləri xatırlatmaq yerinə düşər. Cənab Prezident deyirdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. İyirmi il bundan əvvəl verdiyi vədlərə əməl edən Cənab Prezident Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Aparılan düzgün xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənib, işgüzar, ikitərəfli münasibətlər qurulub. Ölkəmiz transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi etibarlı tərəfdaşa çevrilib. Bütün hədəflərə doğru Azərbaycan dünyaya nümunə olan özünəməxsus modelləri ilə diqqət mərkəzindədir.

*Ardı Səh. 11*

# Azərbaycanın əbədiyaşar memarı HEYDƏR ƏLİYEV

Əvvəli-Səh-10

Müasir dünyamızda Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyət kəsb edən tərəfdaş ölkə kimi tanınır. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti Azərbaycanın uğurlu gələcəyinə işıq salır. Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi ”Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam”, fikri əməli fəaliyyətdə təsdiqini tapmış oldu. Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın Ona olan etimadını doğrultdu. Cənab İlham Əliyevin uğurlu daxili siyasəti, məqsədyönlü islahatlar proqramı ölkədə vətəndaş məmnunluğuna səbəb olub. 44 günlük Vətən müharibəsində Azərbaycan Zəfər qazandı. Tarixi ədaləti diplomatik yolla bərpa edən Ali Baş Komandan İlham Əliyev Zəfər yazmış Sərkərdə, Qalib Lider kimi tariximizə möhrünü vurdu.

Bu dünya tarixində nadir hadisədir ki, 30 ilə yaxın işğal altında olan torpaqlar 44 gün ərizində işğaldan azad olundu və dünya hərb tarixində yeni səhifə açıldı. ”Xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi”, - deyə Azərbaycan Prezidenti bildirmişdir. Bu gün işğaldan azad olunan ərazilərimizdə – hər bir yerdə Xankəndində, Xocalıda, Ağdərədə və s. Azərbaycan bayrağı dalğalanır.

”Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı”, – deyə dövlətimizin başçısı bildirmişdir. Əlbəttə ki, Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu qalib ordudur və onun gücü artıq dünyaya bəllidir. Azərbaycan Ordusu istənilən bir hücumun, təxribatın, terrorun qarşısını almaqda böyük gücə, potensiala malik nizami ordudur. Bu il sentyabrın 19-da Qarabağ bölgəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Müzəffər Ordumuz qarşıya qoyulan hədəfləri qısa bir zamanda – bir gün ərzində uğurla yerinə yetirmiş oldu. Bu Azərbaycanın tarixində növbəti Qələbə olaraq yer aldı. Lokal xarakterli antiterror tədbirlərdə Azərbaycan Ordusu növbəti dəfə döyüş ruhunu, döyüşkənliyini göstərdi. Qarabağ iqtisadi rayonunda keçirilmiş antiterror tədbirlər separatçıları təslim olmağa məcbur etdi. Özü də mülki şəxsə ziyan vurmadan, dinc sakinləri hədəf almadan, mülki obyektlərə belə atəş açmadan. Prezident İlham Əliyev bildirdiyi kimi, ”Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, ”dəmir yumruq” yerindədir”,

Müasir dünyamızda Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiramın nümunəsi olaraq yaradılmış Heydər Əliyev Fondu Onun azərbaycançılıq fəlsəfəsinin, milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılamaqla böyük bir məsləki həyata keçirir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirərək əməli fəaliyyəti ilə xalqın xeyirxahlıq, haqq-ədalət ünvanına çevrilib. Ümummilli Lider Heydər Əliyevin zəngin irsini öyrənməyi və təbliğ etməyi, eləcə də ölkəmizin bütün sahələrini əhatə edən fəaliyyəti ətrafında yetişən nəsildə fikir formalaşdırmaq məqsədi ilə Fondun çoxsaylı layihələri rezonans doğurub. Mövcud prinsiplər və ənənə ilə böyük missiyanı ardıcıl olaraq həyata keçirən Fondun Azərbaycan mədəniyyətinin və tarixinin dünyada daha geniş tanıdılması ilə bağlı gördüyü işlərin sayı-hesabı yoxdur. Ölkənin sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması kimi amillər məhz Heydər Əliyev ideyalarının təzahürüdür. ”Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı”, “Tolerantlığın ünvanı – Azərbaycan”, ”Təhsilə dəstək”, ”Diabetli uşaqlara ən yüksək qayğı” kimi layihələri ilə öz töhfəsini verir. Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Heydər Əliyev Fondu dini-mədəni abidələrin təmir və bərpasında böyük layihələrə imza atıb.

Bütün bunlar Heydər Əliyev ideyalarına sədaqət və ehtiramdan irəli gəlir. ”O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir”, - deyə Mehriban Əliyeva bildirmişdir. Azərbaycanın ictimai-siyasi həyatında misilsiz rolu olan və onun müstəqilliyini əbədi edən Ulu Öndər Heydər Əliyev kimi tarixi Şəxsiyyətin 100 illik yubileyi ölkəmizin bütün ərazilərində, onun hüdudlarından çox uzaqlarda qeyd olunmaqda davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamına əsasən, Azərbaycan Respublikasında 2023-cü il ”Heydər Əliyev İli” elan edilib. Belə bir dühanın keçdiyi yol hər kəs üçün qurur mənbəyidir, fəxarətin ünvanıdır. Bu gün artıq Ümummilli Liderin vaxtı ilə söylədiyi ”Azərbaycan dünyaya günəş kimi doğacaq” fikri reallığa çevrilib.



# “Yarandığı gündən Kanada heç vaxt müstəqil dövlət olmayıb”

“Özlərini insan hüquqlarının və azadlıqlarının müdafiəçisi hesab edən və bu sahədə Azərbaycanı ittiham edən dövlətlər hər zaman insanlığa qarşı cinayətlər törətmiş ölkələrdir. Bu sahədə Azərbaycanı ittiham edən Kanada və bu ölkənin xarici işlər naziri Melani Colinin İrəvanda ölkəmizə qarşı qərəzli, əsassız ittihamlar söyləməsi təəccüb və gülüş doğurur. Həmçinin Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinin vacibliyini vurğulaması riyakarlığın, saxtakarlığın ən bariz nümunəsidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.

Onun sözlərinə görə, BMT TŞ Ermənistanı işğalçı dövlət kimi tanıyıb, bu barədə 4 qətnamə qəbul etdiyi vaxt Kanada 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistana bu işğala son qoyması barədə bir kəlmə belə söyləmədi: “M.Colinin xarici işlər naziri postuna gətirilməsi absurddur. Dövlətin xarici siyasət kursunu həyata keçirən birinin Ermənistandan Azərbaycan ərazisinə binokldan baxması cəsus şəbəkəsinin nümayəndəsi obrazı yaradır.

Kanada kimi marionet bir dövlətin bu cür ”siyasətçi” olması əslində təəccüblü deyil. Azərbaycanı ”deportasiya”da günahlandıran Kanada dövləti vaxtilə bu ərazilərin aborigen sakinləri olan hindulaları kütləvi şəkildə qətlə yetirərək qurulub. Yarandığı gündən Kanada heç vaxt müstəqil dövlət olmayıb, ABŞ ın vassalı olub. Bu gün də ABŞ qubernatoru Kanada hökumətindən daha yüksək səlahiyyət və imtiyazlara malikdir. Marionetka bir dövlətin heç bir dövlətdən asılı olmayan, müstəqil xarici və iqtisadi siyasət həyata keçirən güclü Azərbaycan dövlətini ittiham etməyə nə cürəti, nə də haqqı yoxdur.

Kanada rəsmiləri Azərbaycanın onlar üçün nə qədər əhəmiyyətli bir ölkə olduğunu anlamırlar. Kanada öz enerji təchizatını Azərbaycan üzərindən keçməklə Mərkəzi Asiya dövlətlərindən uran almaqla həyata keçirir. Azərbaycanın haqqı var ki, bu ixracı dayandırsın və düşünürəm bu istiqamətdə addımlar atılacaq. Azərbaycanda fəaliyyət göstərən Kanada şirkətlərinin fəaliyyəti də dayandırılmalıdır. Kanada ilə yanaşı Azərbaycan dövləti ilə təhdid dilində danışmaq istəyən ölkələr sonda hansı aqibətlə üzləşəcəklərini anlamalıdırlar”.

***Ayşən Vəli***



**Elçin Bayramlı**

# Körpə qatilləri niyə cəzalandırılmır?

***“Azərbaycan uşaqların cins seçiminə görə dünyada 1-ci yerdədir”. Bu fikirləri BMT-nin Əhali Fondunun baş müşaviri Fərid Babayev Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və İnsan hüquqları komitəsinin birgə dinləməsi zamanı bildirib. BMT nümayəndəsi qeyd edib ki, ölkəmiz 2021-ci ildə bu məsələdə 1-ci yerdə olan Çini artıq üstələyib: “Bütün selektiv abortlar kriminal abortlardır. Bununla Cinayət Məcəlləsinin qapısı açılır”.***

Son illərdə ökədə qeydə alınan abort sayı 30-35 min civarında dəyişir. Xüsusən də, selektiv abortlar daha təhlükəlidir. Bəzi abortlar gizli edildiyindən rəsmiləşmir və statistikaya daxil olmur. Buna görə də, hesab edilir ki, real rəqəmlər rəsmi statistikadan dəfələrdə çoxdur.

Abortlar faktiki olaraq qətl hadisəsidir, - bu, hələ doğulmamağa imkan tapmamış körpələrə qarşı fiziki terror, analara qarşı isə həm psixoloji, həm fizioloji terrordur. Abortlar bir cəmiyyəti xəstə vəziyyətə salır, demoqrafik vəziyyəti ağırlaşdırır, milli genefondu məhv edir, cinslərin təbii balansını pozur. Qsaca abort ən qorxunc və ən dəhşətli bəladır. Abort faktiki qətl hadisəsi olmaqdan əlavə, həm mənəvi, əxlaqi, psixoloji cəhətdən deqradasiyanın son həddidir, həm də milli genefondumuzun, ailə institutumuzun tam dağılması deməkdir. Tibbi araşdırmalara görə, ana bətnindəki embrionun ürək döyüntüləri 18 gündən sonra başlayır, 40 gün sonra baş beyinə impulsların getdiyi müşahidə olunur, 6-7 həftədən sonra müstəqil hərəkətə başlayır.

Ana bətnindəki uşağı öldürməklə, küçədəki hər hansı bir şəxsi öldürmək arasında heç bir fərq yoxdur. Maraqlıdır ki, qanunlar hər hansı bir qətlə ağır cəzalar verdiyi halda, körpələrin göz qabağında açıq şəkildə qətli həyata keçirildikdə buna nə qanun, nə də bir başqası reaksiya verir. Açıq şəkildə ölkədə hər gün minlərlə qətl törədilir. Faktiki olaraq, milli genefonda qarşı kütləvi terror törədilir.

Bunun qarşısını almaq üçün nə dövlət, nə də cəmiyyət heç bir tədbir görmür. El arasında “arvad-uşaq komitəsi” adlandırılan orqan dövlətin pullarını boş yerə xərcləməklə məşğuldur və bu sahədə heç bir effektiv iş görmür, hansısa təbirlər həyata keçirmir, nəzarət etmir. Bu komitə ləğv olunmalıdır və xüsusi bir dövlət orqanı yaradılmalıdır. Bəzi ölkələrdə abortların edilməsinə qarşı daha mühafizəkar qanunlar var. Hətta bəzi Avropa ölkələrində belə, abort etmək qadağandır və abort edən şəxs sərt cəzalandırılır. Bizdə demək olar ki, bu məsələ ilə bağlı nə aidiyyatı dövlət orqanları maraqlanır, nə cəmiyyətin, nə də mətbuatın vecinədir.

Abortlar geniş planda baxıldıqda milli təhlükəsizlik məsələsidir. Bu milli fəlakətdən xilas olmaq üçün təcili şəkildə dövlət bu məsələ ilə bağlı ya xüsusi proqram qəbul etməlidir, ya da bu sahə üzrə geniş səlahiyyətlərə malik xüsusi dövlət orqanı yaradılmalıdır. Bu sahəyə çox ciddi nəzarət olunmalıdır və çox sərt cəzalar qoyulmalıdır.

Ana bətnindəki körpələrin abort edilərək öldürülməsinin heç bir bəraəti ola bilməz. Yalnız doğuşun qadının həyatına təhlükə törədəcəyi halda bu, mümkün sayılır. Hesablamalara görə, abortların yalnız 1-2 faizi son məcburiyyət halında edilir.

Azərbaycan qanunvericiliyində aborta məcbur və təhrik etməyə görə 115-ci maddənin 2-ci və 3-cü hissələrinə görə islah-əmək koloniyalarında cəza verilir. Lakin könüllü aborta görə cinayət məsuliyyəti yoxdur. Təcrübə göstərir ki, maarifləndirmə və təbliğatla heç nəyə nail olmaq olmur. Əksinə, vəziyyət getdikcə pisləşir. Demək, ümid qalır sərt inzibati tədbirlərə. Abort edən və etdirən uzun müddətə həbs cəzasına layiq görülməlidir. Yalnız bu yolla bu dəhşətli fəlakətin qarşısını almaq olar.

# Keysəriyyə-Allaha qarşı çıxanların seçimi

*Zaman vardı ki, uşağın dünyaya gəlməsinə Allah hökm verirdi. Yəni ana hamiləliyinin doqquzuncu ayının sonlarına doğru övladının hansı gün, hansı saatda dünyaya gəlişindən xəbərsizcə onun yolunu səbirsizliklə gözləyirdi. Bu, gecənin yarısında da ola bilərdi, səhərin sübhündə də, gündüzün ortasında da. Allahın hökmü, yazısı ilə...*






Doğum gününün hansı günə təsadüf etməsi ilə bürc müəyyənləşir ki, bu bürc insanın həyatında böyük əhəmiyyətə malik olur. Aid olduğumuz bürc xarakterimizlə birləşir. Aid olduğumuz bürclə gələcəyimiz birləşir. Hətta kiminlə ailə qurub onu ömür-gün yoldaşına çevirə biləcəyimiz, bu evliliyin bizim üçün uğurlu və yaxud uğursuz olması da birbaşa bürclərimizlə bağlıdır. Çünki bütün bunlar alın yazısı deyilən məqamda birləşir və Allah-təaladan hər birimizə ərməğan edilir. Bütün bunlar həyatımızda, xoşbəxtliyimizdə, övladlarımızın gələcəyində böyük rola malikdir. Lakin gəlin görək, hər kəs üçün bu, belədirmi? Bəzi insanlar Allahın alın yazısı ilə barışırmı?

### Günün dəbi-keysəriyyə

Artıq biz bütün sahələrdə Allahın hökmünü pozduğumuz kimi, insanın dünyaya gəlməsi məsələsində də Allahın hökmünü pozmaqdayıq. Belə ki, artıq illərdir ki, əksər ana əslində övladının dünyaya gəlməsi günündən xəbərsizdir. O mənada ki, artıq həmin günü onların özləri müəyyən edir. Məsələn, bu ayın 15-i həyat yoldaşımın və yaxud oğlumun ad günüdür, bu uşaq da həmin vaxt doğulsa, yaxşı olar. Filan gün anamın doğum günüdür, elə uşağın doğuşunu da həmin günə salsaq, gör, necə gözəl olar. Bu kimi onlarla nümunələr göstərmək olar ki, artıq uşağın dünyaya gəlmə tarixini valideynlər özləri təyin edirlər. Bunun da başlıca səbəbi indi artıq çox sayda qadının "müasirləşməsi", təbii yolla deyil, süni yolla doğuşa, yəni keysəriyyə əməliyyatı ilə övladlarını dünyaya gətirmələrinə verdikləri üstünlüklə bağlıdır. Keysəriyyə indi günümüzün ən böyük dəbidir. Hətta bəzi həkimlər də qadınları keysəriyyə əməliyyatına cəlb edirlər.

Əvvəllər keysəriyyə əməliyyatı o qadınlarda aparılırdı ki, onlarda doğuş anında hansısa bir problemin olduğu müəyyən edilirdi və həkim qərar verirdi ki, bu qadın uşağı dünyaya gətirməklə öz həyatını itirə bilər. Belə olanda onun üçün keysəriyyə üsulu seçilirdi. Bu da çox təsadüfi xarakter daşıyırdı. Lakin müasir cəmiyyətimizdə artıq təbii doğuşlar təsadüfi hallarda olur. İndi hər bir qadın deməк olar ki, keysəriyyəyə üstünlük verir. Bu üsula üstünlük isə həm də uşağın Allah-təalanın yazdığı gündə doğulmasına qarşı çıxmaq kimi qəbul edilməlidir. Çünki artıq burada doğuş gününü qadın özü, həkimi və ailəsi müəyyən edir. Allah bu uşağın dünyaya gəlmə əmrini ayın 5-nə vermişdirsə, uşaq dünyaya gəlir 10 gün əvvəl. Beləliklə onun taleyinə yazılan bürc də o biri bürclərlə qarışır.

### İtirilən bürclər




Beləliklə, uşaq öz bürcündən ya əvvəlki, ya da sonrakı bürcə məxsus olur. Aid olduğu bürc isə valideynləri sayəsində itirilir. Məsələn, övladımız çox dəcəldir, ipə-sapa yatmayandır və yaxud onda qeyri-adi bir xasiyyət var. Belə olanda biz onun bürcünə baxırıq. Baxırıq ki, görək bu uşaqdakı xasiyyət barədə onun məxsus olduğu bürc nə deyir. Oxuyuq, bu bürcdə övladımıza aid heç bir şey görmürük. Belə olanda hələ bir bürclərə də inanmamağa başlayırıq ki, əşi, bu bürclər də doğrunu söyləmir. Lakin bircə dəfə düşünmürük ki, axı biz özümüz övladımızın bürcünün yerini dəyişik salmışıq. Bu bürcü biz ona vermişik. Allahın qismət etdiyi gündə doğulsaydı, təbii ki, o öz bürcündə olacaqdı və biz bu qədər problemlə qarşılaşmayacaqdıq.

Uşaqlarda bəzi psixoloji hallar da yaşanır ki, bunun aradan qaldırılmasında təbii ki, məxsus olduğu bürcün göstəricilərindən istifadə etməklə müalicə aparmaq olur. Biz keysəriyyə doğuşla övladımızın dünyaya gəlmə tarixini dəyişməklə bürcünü də dəyişir və həyatı boyu onu problemlərlə üz-üzə qoyuruq. Beləliklə...

### Keysəriyyə ilə bürclərə yaranan inamsızlıq

Sonra uşaqlar böyüyür. Hər kəs kimi onlar da zamanında bürcləri ilə tanış olmaq istəyirlər. Hətta ona da maraq edirlər ki, görək nikahda hansı bürclər bizim üçün uğurlu hesab olunur. Oxuyur, məlumatlanırlar. Lakin bu məlumatlar onlar üçün doğru hesab edilirmi? Əlbəttə, yox. Məsələn, Allah övladımızı "Xərçəng" bürcünə məxsus olmasını istəyib, ona bu bürcün xasiyyətini, uğurunu, uğursuzluğunu, nə bilim, xeyrini verib. Öz bürcünə müvafiq insanlarla dost olmağı, öz bürcünə uğur gətirəcək bürclərdən olan qadınla, kişi ilə ailə qurmağı uyğun bilib. Bizim analarımız nə edir? Bizi "Əkizlər"də dünyaya gətirir. Biz də oluruq "Əkizlər" bürcündən.Və yaxud "Qız" bürcünə məxsus olduğumuz halda "Şir" bürcünə aid zamanda dünyaya gəlirik. Əslində "Qız" bürcü ilə "Şir" bürcü arasında o qədər böyük fərq var ki, elə bu fərqlər də gələcək həyatımızı tamamilə bir-birinə qarışdırır. Nə ata-ana, nə baba-nənə, nə biz özümüz özümüzdən baş aça bilmirik ki, biz nə üçün şir kimi hökmranlıq etmək xarakterində deyilik. Hələ üstəlik valideynlər bizi qınamağa da başlayırlar ki, sən nə qədər bacarıqsızsan: nə üçün heç olmasa bürcünə çəkməmisən? Axı sən "Şir" bürcündənsən. Həmişə güclü, əzəmətli, hökmran, diktator olmalısan. Düşünmürük ki, axı bu uşaq "Şir" bürcündən deyil, "Qız" bürcündəndir. O, diqqətlidir, çalışqandır, istək və arzusunun reallaşması üçün əlindən gələni edəndir və bir o qədər də məsuliyyətlidir. Lakin hökmranlığı sevmir, diktator olmaq istəmir. Bu, onun xarakterinə yaddır.

Zaman gəlir, sevib sevilirik. Sevdiyimizin bürcü ilə maraqlanırıq. Oxuyub məlumat alırıq ki, onun bürcü ilə bizim bürcümüzün nikahda uğuru var. Amma əslində belə deyil axı. Çünki bizim bürcümüzün yerini dəyişdirib valideynlərimiz. Ailə qururuq. Baxırıq ki, yox, xasiyyətlərimiz uyğun gəlmir. Əsla bir yerdə yaşamağımız mümkün olmur. Belə olanda bürclərə inamsızlığımız yaranır. Hansı ki, bürclər bizim həyatımızın astronomik tərəfidir.

### Tək bürc deyil, ay, gün, saat, an belə bir taledir



Valideynlər bilsə ki, dünyaya gəlişimizi müəyyənləşdirən Allahımız onu necə incə detallarla düşünüb-daşınıb həll edib, əsla bu cür hərəkətlərə yol verməzlər. Nəinki bürc, bizim hansı ayda, gündə, saatda, hətta anda belə dünyaya gəlməyimizin özünəməxsus tərəfləri, taleyimizdə böyük rol oynayan məqamları var. Nə üçün bir iş görəndə deyirlər ki, kaş ki, işimizin üstünə filankəs gələrdi, ayağı çox uğurludur. Nə üçün qonşu səhər-səhər evdən çıxıb bir işin dalınca gedəndə darvazadan boylanır ki, görüm yan qonşu küçədə deyil. Bilir ki, qarşısına o çıxsa, işi alınmayacaq. Nə üçün biz xeyirli bir iş üçün gedəndə evdəki beş-altı ailə üzvündən məhz birinə deyirik ki, gəl, bu işi sən başla? Çünki bu insanların günün hansı saatında dünyaya gəlməsi ilə bağlı uğurlu-uğursuz olmaları da müəyyən edilir. Sübh çağı, günorta və axşamçağı doğulan insanlar arasında günün vaxtlarına görə də fərqlər var ki, bu fərqlə həyatımızı başa vururuq. Lakin müasir dövrümüzdə günləri də, saatları da, hətta ayları da dəyişdiririk. Bu adamın, necə deyərlər, ayağı sayalı olduğu halda, axşamçağı doğulub deyə onu o cür tanımırlar. Və yaxud da əksinə. Beləliklə də səhv addımımızla, doğum günlərinin üst-üstə, yan-yana, yaxın, əlamətdar günlərlə qoşa düşməsi naminə talelərimizdə, həyat tərzimizdə də dəyişikliklər edirik.

### Allaha qarşı çıxanlar...

Bəli, belə olan halda ağıla gələn yalnız o olur ki, bəzi insanlar Allaha qarşı çıxırlar. Yəni özləri üçün lazım olanı özləri müəyyən edirlər. Hansı ki, onların hər birində yaradıcı bir qüvvə var. Əgər Yaradan olmasa, əslində heç nəyimiz olmaz. Düşünürəm ki, oturub qarşımıza da papağımızı qoyub fikirləşməyin vaxtı çoxdan çatmışdır. Lakin biz fikirləşməkdə də, düşünməkdə də hər zaman olduğu kimi gec qalırıq. Övladlarımız, onların gələcək taleyi naminə oturub fikirləşməliyik. Fikirləşdikcə də özümüzə sual verməliyik ki, əgər bütün bunlara biz qərar verməliyiksə, Allah nə üçündür bəs? Nə üçün, nəyə görə övladımızın dünyaya gəlişinin real vaxtını gözləmirik? Nə üçün gözləməməliyik? Burada tələsik nə var ki? Axı nə üçün övladımızla həyat yoldaşımızın doğum günü eyni vaxtda olmalıdır. Nə üçün qızımızla nənəsinin ad günü eyni gündə qeyd olunmalıdır. Nə üçün oğlumuz böyük qardaşı ilə bir günün sevincini paylaşmalıdır... Filan tarixdə hansısa bir qohumun toyu olacaq və mən o toyda hökmən iştirak etməliyəm deyə nə üçün övladımızın doğum gününü qabağa çəkməliyik, bürcünü dəyişməliyik? Allahın ona bəxş etdiyi cümə gününü çərşənbə ilə, Allahın ona bəxş etdiyi sübh çağını axşamçağı ilə, Allahın ona bəxş etdiyi saatı başqa saatla əvəzləşdirməliyik? Nə üçün? Məgər biz tale yazanıq?

Taleni Allah yazır. Ulu Yaradanın bir anı belə min bir məna ilə, dəyərlə, qismətlə əlaqəlidir. Allahın bəxş etdiyi doğum günü bizim Yaradanımızla bağımızdır. Allah bu bağla bizi idarə edir. Bizsə o bağı qopardırıq. Övladımızı gələcək çətinliklərlə üz-üzə qoyuruq. Elə bir çətinlik yaradırıq ki, nə o özünü tanıyır, nə də biz dünyaya gətirdiyimizi. Qalırıq müəmmalı nüanslar, sual dolu bir həyat qarşısında...

### Qapılarımızı Avropaya açdıq

Dünyaya insan gəlir... Hər gün... Yüzlərlə, minlərlə. Hər birinin də doğulmazdan əvvəl taleyi doğulur. Artıq o, dünyaya gələndə alnında yazısını da gətirir. Və elə o andan, o saatdan başlayaraq alın yazısı ilə həyatına davam edir. Biz dünyaya kişimi, qadınmı gələcəyik, buna qərarı Allah verir. Biz dünyaya hansı ayın hansı günündə gələcəyik, buna da qərarı Allah verir. Bəs biz hansı bürcə, hansı ilə aid olacağıq, bəli, buna da qərarı Allah verir. Allahın qərarı ilə, yəni bizim hansı aya, hansı günə, hansı bürcə aid olmağımızla da xarakterimiz formalaşır, taleyimiz həmin bürcə, ilə, aya, günə uyğunlaşdırılmış şəkildə yazılır. Bütün bunları keysəriyyəyə qurban verməyək. Rahatlığımız üçün dəyərlərimizi itirməyək.

Bəsdir, deməyin vaxtıdır. Biz həyatımızın bütün tərəflərinə müasirlik gətirdik. Qapılarımızı Avropanın üzünə açdıq, dedik ki, gəl, xoş gəlmisən, keç yuxarı başa. O da keçdi oturdu yuxarıda. Nəyi istədi, verdik ona. Geyimimizdən tutmuş yeməyimizədək, hərəkətlərimizdən tutmuş davranışlarımızadək. Ta bu qədər yetər axı. İndi də doğum tarixlərimizi bada verməliyik?

Analar Avropa qadınlarının yolu ilə gedib təbii doğuşa deyil, keysəriyyəyə üstünlük verəcək deyə, övladlar nə üçün bürcünü, ayını, gününü, saatını itirməlidir? Etməyin bunu, analar, böyüklər. Övladlarınızı məxsus olduqlarından məhrum etməyin.

**Mətanət Məmmədova**

# Əli Kərimli trollarının sayını artırıb

***Azərbaycan xalqı qalib və müzəffər xalqdır. Ordumuz isə məğlubedilməz və hər bir maneəni qətiyyətlə almağa qadir, qarşısına qoyulan istənilən məqsədə nail olmağı bacaran ordudur. Yüz illər keçsə də, Azərbaycan xalqının qazandığı bu qalibiyyət unudulmayacaq. Əksinə, hər gələn yeni nəsil bugünkü parlaq tarixi öz düşüncəsinə uyğun təqdim etməklə Azərbaycan xalqının siyasi, hərbi, diplomatik uğurlarına yeni çalarlar, rənglər əlavə etmiş olacaq. Bu baxımdan bugünkü insanlar xoşbəxt insanlardır ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan qələbələrin şahidləridir. Təəssüflər olsun ki, uğurlarımıza, xüsusilə də, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etməyimizə qısqanclıqla yanaşanlar var. Onlar hər fürsətdə çalışırlar ki, diqqətlərini Azərbaycanda baş verən ictimai- siyasi hadisələrə yönəldən xarici ölkə vətəndaşlarında suallar yaratmağa xidmət edən fikirlər formalaşdırsınlar. İstəklərinə nail ola bilməsələr də, bəd əməllərindən də əl çəkmirlər.***



Təbii ki, Azərbaycanın dağıdıcı müxalifətini ölkəmizin milli və dövlətçilik maraqlarına qarşı düşmən mövqe sərgiləməyə xarici maraqlı dairələr təhrik edirlər. Məhz məkrli xarici qüvvələr ölkəmizin 44 günlük Vətən Müharibəsində əldə etdiyi parlaq qələbədən ciddi narahat olduqlarından Ermənistana dəstək verməklə Azərbaycana yamanlıq etməyə çalışırlar.

### Əli Kərimli pul qarşılığında milli mənafeyimizə zidd açıqlamalarla çıxış edir

Ermənistana bacılıq edən Fransanın açıq şəkildə erməni separatizmini dəstəkləməsi və Ermənistan hərbi, siyasi, maliyyə dəstəyi nümayiş etdirməsi, ABŞ tərəfindən idarə olunan marionet ölkə Kanadanın xarici işlər naziri Melani Coli Ermənistana səfəri zamanı ölkəmizə qarşı əsassız ittihamlar səsləndirməsi və Azərbaycana qarşı sanksiyalar tətbiq olunacağı barədə absurd hədə mesajı ilə çıxış etməsi Belçikanın, Almaniyanın və Hindistanın cəfəng bəyanatlarla çıxış etmələri, hətta Hindistanın Ermənistana hərbi dəstək göstərməsi Azərbaycanın dünya siyasət meydanında yerinin və rolunun möhkəmlənməsindən sözügedən dövlətlərin həddindən artıq narahat olmalarından irəli gəlir. Ona görə də, beynəlxalq platformalarda və erməni lobbisi ilə görüşlərində Azərbaycana qarşı beynəlxalq hüquq normalarına zidd açıqlamalarla çıxış edirlər. Sapı özümüzdən olan baltalar, o cümlədən, Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli, Fuad Qəhrəmanlı və digərləri də maddi və mənəvi cəhətdən xarici fondlardan asılı olduqlarından onların sifarişlərini yerinə yetirirlər. Əgər Ə.Kərimli və ətrafında olan trollar xarici fondlardan hər hansı formada maddi dəstək almasalar, onların istəklərini və tələblərini də dilə gətirməzlər. Necə ola bilər ki, dünyanın əksər millətləri, Azərbaycanın Ermənistan üzərində parlaq qələbə qazanmasından həsədlə danışır, paxıllıq hissi ilə fikirlər səsləndirib, müzakirələr qururlar. Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və digərləri birbaşa Koçaryan, Sarkisyan, Ohanyan kimi sərsəm, böhtanlardan ibarət fikirlər səsləndirirlər. Xankəndidə üçrəngli bayrağımız ucaldıqdan sonra Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli, Fuad Qəhrəmanlı və digərləri hadisələrin hazırkı vəziyyətinə dəxli olmayan açıqlamalarla çıxış edirlər. Daha doğrusu, Ə.Kərimli çeynənmiş sözlərini növbəti dəfə səsləndirməklə, əslində, idarəolunan məxluq olduğunu nümayiş etdirir.

### "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar"

Ə.Kərimli gah deyir ki, "Zəngəzur dəhlizi"nin açılması Azərbaycanın maraqlarına cavab vermir, gah da iddia edir ki, Ermənistanla sülh müqaviləsinin imzalanmasının uzanması Azərbaycanın vaxt itkisidir: "Azərbaycan və Ermənistan arasında sülh sazişinin ertələnməsi hansı risklər yaradır? Prezident İlham Əliyevin vaxtilə Zəngəzur dəhlizi haqqında söylədiyi "istəməsələr, zorla həll edəcəyik" bəyanatından Azərbaycan hakimiyyəti artıq rəsmən imtina etdi. Bəs vaxtilə verilmiş bu səhv bəyanatın ötən illərdə Azərbaycana nələrə başa gəldiyini, ölkəmizə hansı zərərlər vurduğunu bilirsizmi?". Birincisi, bu məxluq anlamalıdır ki, bir var müharibə dövrü, biri də var müharibədən sonra olan dövr. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev bütün addımlarını və fikirlərini zərgər dəqiqliqi ilə ölçüb, biçib və atıb. Hər bir çağırışını və mövqeyini müharibə dövründə müharibə qaydalarına uyğun, müharibədən sonrakı dövrdə isə məhz sülhə və təhlükəsizliyə xidmət edən mövqedən çıxış etməklə ifadə edib. İkincisi, Cənab Prezident "zor gücünə məsələni həll edəcəyik", - deməyib. Cənab Prezident Qarabağa səfəri zamanı məsələni yenidən gündəmə gətirdi və qeyd etdi ki. biz Zəngəzura sülh yolu ilə, maşınlarla gedəcəyik. Bu fikir Ə.Kərimlini və ətrafında olanları qane etmirsə, deməli, onların başlarında ciddi problemləri var. Yəni, psixoloqa müraciət etməlidirlər. Üçüncüsü isə, artıq Qarabağ məsələsi bitib və Azərbaycan qalib dövlət olaraq diktə edən tərəfdir. Əgər Ermənistan sülh istəyirsə, Azərbaycan tərəfi sülh sənədini və çağırışını gözdən keçirə bilər. Müharibə istəyirsə, yenə də Azərbaycan hazırdır. Lakin Ermənistan anlamalıdır ki, bu dəfə müharibə baş versə, İrəvan Azərbaycan əsgərinin tapdağı altında qalacaq.

Bir sözlə, dağıdıcı müxalif funksionerlər nə qədər boşboğazlıq etsələr və sərsəm açıqlamalarla çıxış etsələr, daha çox ziyan çəkməli olacaqlar. El məsəlidir: "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar". Bu reallığı Ə.Kərimli və troll dəstəsi də anlamalıdır. Əks halda, onlar üçün növbəti fəlakət qaçılmaz olacaq.

***İ.ƏLİYEV***

ANALİZ

# Erməni bloger niyə təqib olunur?

***"2022-ci ilin avqustunda mən Qarabağ ermənilərinə öz nümunəmdə inteqrasiyada bir qəbahət olmadığını göstərmək üçün Azərbaycan Prezidentinə vətəndaşlıq almaq və Xankəndidə yaşamaq xahişi ilə açıq müraciət yazdım. Bu, sığınacaq xahişi deyildi, Azərbaycanın Qarabağ ermənilərinə qarşı soyqırım törədəcəyi ilə bağlı erməni təbliğatının tezislərini təkzib etmək üçün siyasi aksiya idi".***



Bu sözləri ölkə mətbuatına erməni blogeri İşxan Verdyan Ermənistanda onun haqqında cinayət işi açılmasına və casusluqda ittiham olunmasına münasibət bildirərkən deyib.

yeni müharibəyə başlamamağa çağırış etdiyim statuslarıma əsaslanır.

Belə ki, Ermənistan Respublikasının Milli Təhlükəsizlik Xidməti mənim Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımağımı Ermənistana dövlət xəyanəti kimi qiymətləndirib, İstanbulda yaşamağı-



## İşxan Verdyan:"Ermənistanın öz vətəndaşlarına qarşı terroru dəstəkləyən dövlət olduğunu söyləyəcəm"

### "Ermənistan Respublikasının Milli Təhlükəsizlik Xidmətindən haqqımda cinayət işinin açıldığını, axtarışa verildiyimi təsdiq edən bildiriş aldım"

Onun sözlərinə görə, cinayət işinin açılmasına Feysbuk səhifəsində yazdığı "Qarabağ Azərbaycandır" sözləri səbəb olub: "Azərbaycan Prezidentinə müraciətimdən iki gün sonra Ermənistan mətbuatında bu ölkənin Baş Prokurorluğunun press-relizində İstanbulda yaşayan İ.V. adlı bir nəfərə qarşı dövlətə xəyanət, casusluq və düşmən tərəfə keçmək maddələri ilə cinayət işi açıldığını gördüm. Vəziyyəti aydınlaşdırmaq üçün Baş Prokurorluğa məktub yazdım və cavab olaraq Ermənistan Respublikasının Milli Təhlükəsizlik Xidmətindən haqqımda cinayət işinin açıldığını, axtarışa verildiyimi təsdiq edən bildiriş aldım".

Verdyan əlavə edib ki, Ermənistanın ombudsman vəzifəsi Baş nazir Paşinyana sadiq olan şəxsə keçdikdən sonra ona qarşı qaldırılan cinayət işinin siyasi mahiyyət daşıdığını anlayıb və işinə yenidən baxılması xahişi ilə ombudsman aparatına müraciət edib: "Ombudsman işə yenidən baxılması üçün MTX-yə göndərdi. MTX-nin mənə açıqlamasından məlum oldu ki, haqqımda qaldırılan cinayət işinə xitam verilməsindən imtina olunub. İttiham mənim Feysbuk səhifəmdə Qarabağın Azərbaycan olduğuna, mı isə casusluq kimi görüblər. Elə bu! İttihamın əsasında başqa heç nə, bir dənə də olsun fakt yox idi".

### "Dövlət səviyyəsində terror həyata keçirilirdi"

Erməni bloger bildirib ki, bu ittiham, əslində, Ermənistanda şişirdilmiş söz azadlığı ilə bağlı təsəvvürləri alt-üst edir: "Ermənistan məni dövlət cinayətkarı kimi görür, ona görə ki, hamının sonda etiraf etdiyini açıq şəkildə yazırdım. Belə çıxır ki, bu qədər geniş təbliğ olunan söz azadlığı Ermənistanda yoxdur. Ermənistan dövləti öz vətəndaşlarını fikir bildirdiyinə görə ən ağır - keçmiş baş prokurorun cəza kimi ölüm hökmünün tətbiqini təklif etdiyi maddələrlə təqib edir. Mən bilmirəm, bu gün, Azərbaycan Qarabağa nəzarəti bərpa edəndən sonra vəziyyət necədir? Yəqin ki, artıq belə absurd siyasi motivlərlə cinayət işləri açılmır. Lakin Nikol Paşinyan hakimiyyəti dövründə, hətta son vaxtlara qədər, fərqli fikir söylədiyin üçün dövlət səviyyəsində terror həyata keçirilirdi. Haqqımda açılmış cinayət işinə xitam verilməyənə və məndən rəsmi üzr istəməyənə qədər mən bu gün də Ermənistanın öz vətəndaşlarına qarşı terroru dəstəkləyən dövlət olduğunu söyləyəcəm".

***Afət Tahirqızı***

# Əcnəbi ekspertlər: "Ermənistan Avropa-Asiya marşrutunun bir hissəsi olmaq şansını itirdi"

Qatar getdi. Moskva faktiki olaraq Ermənistanı Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının həyata keçirilməsində zəif halqa hesab etdiyini, digər oyunçulara nisbətdə onu Şimal-Cənub nəqliyyat zəncirinin bir hissəsi kimi görmədiyini açıq şəkildə bildirdi. Dəhlizin Azərbaycanın əsas hissəsindən İran vasitəsilə Naxçıvan hissəsinə qədər olan xəttində başlanan tikinti Moskvaya çox sərfəlidir- alternativ istiqamət onun planlarına uyğundur. Belə ki, ötən gün Rusiya baş nazirinin müavini Aleksey Overçuk Azərbaycanla İran arasında Ermənistandan yan keçməklə İran ərazisindən keçən dəmiryolunun tikintisi layihəsinə münasibət bildirib.







"Bilirsiniz ki, Azərbaycan və İran faktiki olaraq Ermənistandan yan keçməklə Araz çayının cənub sahili boyunca uzanacaq avtomobil yolunun tikintisinə başlayıblar və faktiki olaraq İran ərazisindən keçməklə dəmir yolunun tikintisinə dair memorandum imzalayıblar. Ermənistan, çayın o tayında sadəcə baxa-baxa qalacaq. Dəhlizin Zəngəzur hissəsi hazırda Ermənistan tərəfindən dəqiq mövqe olmadığı üçün Şimal-Cənub layihəsinin bir hissəsi kimi nəzərdən keçirilmir. Hələlik, Meğridən keçməsi planlaşdırılan yol ilə bağlı yekun mövqe formalaşmayıb"- o deyib.

Rusiyalı politoloq Vladislav Gerdinin Caliber.Az-a şərhində qeyd etdiyi kimi, Ermənistan faktiki olaraq Türkiyə və Avropaya çıxışı olan Cənubi Qafqazdan keçən tranzit marşrutuna düşmək üçün tarixi şansını artıq itirib.

"Fakt budur ki, Rusiya baş nazirinin müavininin bəyanatına əsasən, İran ərazisindən keçən dəmir yolu və avtomobil yolu nəinki layihələndirilib, hətta kommunikasiyaların tikintisinə başlanılıb. Beləliklə, indidən deyə bilərik ki, tikinti başlayandan Ermənistan Asiya ilə Avropa arasında körpünün bir hissəsi olmaq üçün tarixi şansını itirib. Həmin 42 kilometr 3 il əvvəl həlledici ola bilərdi, lakin Ermənistan bu məsələni mümkün qədər gecikdirdi. Üstəlik, o, yalan danışıb və Rusiya tərəfini əmin edib ki, İrəvan dəhlizə icazə verməkk üzrədir.

Sonra Bakı və Tehran İran ərazisindən keçən dəhlizin həyata keçirilməsinə dair memorandum imzaladılar. Lakin Ermənistan bu "zəng"ə də məhəl qoymadı. İndi mahiyyətcə qatar yola düşüb. Sadəcə olaraq, ona görə ki, artıq tikinti başlayıb, pul ayrılıb, layihə düşünülüb, hesablanıb və hətta indi inanılmaz hadisə baş versə belə, Ermənistan özünə gəlib tranzit dəhlizinin Zəngəzur hissəsinin yenidən qurulmasına başlanıldığını elan etsə belə artıq gecdir. İrandan keçən dəhliz artıq prioritet inkişaf mərhələsindədir və ermənilərin bəyanatlarına görə heç kim onun tikintisini ləğv etmək fikrində deyil.

Beləliklə, yeni transmilli marşrutdan Ermənistan deyil, Azərbaycan və İran faydalanır. İran öz ərazisindən yolun çəkilməsinə lobbiçilik edir və əslində, bu istiqamət Azərbaycan üçün Ermənistan ərazisindən keçən marşrutdan daha sərfəlidir. Beləliklə, Azərbaycan İran marşrutu əsasında Tehranla münasibətlərini etibarlı şəkildə möhkəmləndirir və bu, əvvəllər İranla çətin münasibətləri olan Bakı üçün mühüm strateji sıçrayışdır. Həm də ona görə ki, İran İrəvanla Bakı arasında münasibətlərin qurulması prosesində moderator kimi çıxış edə, hətta ermənilərə təzyiq göstərə bilər. Deməli, İrəvanda artıq hay-küy salıb fəryad etməyə başlaya bilərlər: "Qoymayın, hər şey əldən getdi". Bəli, bu an həqiqətən də hər şey əldən getdi", - deyə Gerdin yekunlaşdırıb.

Qazaxıstanlı politoloq Azat Axmetovun fikrincə, Ermənistan məhz qonşularına qarşı təkəbbür və şovinizmə görə bütün imkanlardan ayrılır.

"Qazaxıstan Zəngəzur dəhlizində çox maraqlıdır və onun icrasını diqqətlə izləyir. Biz artıq 3 ildir ki, gözləyirik və Ermənistan vəd verməkdə davam edir. Eyni zamanda, Rusiyadan başqa digər marşrutların da şaxələndirilməsinə ehtiyacımız son dərəcə böyükdür. Baxmayaraq ki, bütövlükdə Mərkəzi Asiya ölkələri nəqliyyat marşrutunun dəqiq haradan getməsinin fərqinə varmırlar- Ermənistandan, yoxsa İrandan. Amma indi gördüyümüz reallıq ondan ibarətdir ki, Ermənistan dəhliz yaratmaq öhdəliyindən boyun qaçırır, öz təhlükəsizlik məsələlərindən danışarkən tələşə düşür və buna görə də Astana İrandan keçən dəhlizin daha etibarlı və düşünülmüş nəqliyyat marşrutu olduğunu düşünür. Qoy ermənilər özlərini inadkar gənc xanım kimi göstərməyə davam etsinlər, əgər özlərini belə rahat hiss edirlərsə.

Əminliklə deyə bilərik ki, Ermənistan öz qonşularına qarşı yürütdüyü siyasətin lovğalığı və axmaqlığı ucbatından artıq çox şey itirib və daha çox itirəcək. O, sözün əsl mənasında, milyardlarla dollar itirir. Bildiyiniz kimi, su yatan daşın altından axmır, sadəcə olaraq, ondan yan keçərək başqa yol seçir", - deyə Axmetov bildirib.

*Tərcümə - Elçin Bayramlı*

# Köhnə və yeni erməni riyakarlığı: Adımı sənə qoyum...

Necə deyərlər, öz gözündə tükü görmür, özgə gözündə qıl axtarışı edir. Özü də kimlər - cinayətkar keçmişi olan Fransa. Çünki Fransa haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır. Belə olmasaydı Azərbaycanın öz tarixi torpaqlarını düşmən tapdağından azad edərək ərazi bütövlüyünü bərpa etməsi hələ də bəzi qüvvələri, Fransa kimi ölkənin rəhbərliyini ciddi narahat edir. Belə olmasaydı, nə Paris meriyası, nə də Fransa Senatı həll olunmuş münaqişəni separatçılara dəstək məqsədilə yenidən alovlandırmağa hesablanmış addımlar atmazdı.

Fransanın Azərbaycan Respublikasının ərazisində ikinci erməni dövlətinin yaradılmasına yönəlik cəhdləri qəti şəkildə pislənir, işğalçıya dəstək verən Parisin son davranışları hiddət doğurur. Və yaxın keçmişində müstəmləkəçi olan Fransanın indi hansısa "azadlıqlar"dan danışması absurddur. Çünki bu ölkənin tarixinə nəzər saldıqda Fransa nəinki Avropa, ümumilikdə dünya dövlətləri içərisində özünün işğalçılıq və müstəmləkəçilik siyasəti ilə seçilib. Yəni, bu istənilən ölkədə kitablardan oxunması mümkün olan tarixdir. Heç kim bunu Fransaya şər-böhtan kimi demir, yazmır. Fransanın tarix boyu Şimali Afrika, Asiya, hətta Şimali Amerikada törətdiyi soyqırımlar, qırğınlar və apardığı işğalçılıq siyasəti səngiməyib. Bu ölkə müstəmləkəçiliyi ilə seçilib və xüsusən də, Afrikada fransız hərbçilərinin dinc sakinlərə hansı vəhşiliklər etməsi ilə bağlı yüzlərlə fakt mövcuddur. Ötən əsrin əvvəllərinə nəzər saldıqda görərik ki, indi özünə Avropanın demokratik dövləti deyən Fransa Türkiyəni belə parçalamağa çalışırdı, burada ermənilərə dövlət yaratmaq planları var idi. Hər cür murdar əməllərə əl atdılar ki, bu plan reallaşsın. Hətta Fransa ordusunun tərkibində sayı minlərlə olan erməni legionu yaradılmışdı. Dinc sakinlərin, türklərin qırğınına da məhz silahlandırılmış erməni dəstələri səbəb olmuşdu. Əgər ermənilərin özlərinin dediyi kimi həmin dövrdə etdikləri qələtlərə görə itkilər veriblərsə, bu gün Ermənistan Türkiyədən yox, Fransadan təzminat istəməlidir. Çünki onları qırğınlara təhrik edən, Türkiyəyə qarşı qaldırıb torpaq iddiasına salan Fransa idi.

Və bu gün Fransa Senatının sədri Jerar Larşenin bu günlərdə Ermənistanda verdiyi qərəzli və birtərəfli açıqlamaları onun ölkəsinin Minsk qrupu həmsədri kimi üzərinə götürdüyü öhdəliklərlə qətiyyən uzlaşmır. Ən maraqlısı isə Senatın sədri öz açıqlamalarında bir tərəfdən Minsk qrupunun fəaliyyətinin yenidən canlandırılmasına, onun işinə yeni impuls verilməsinə çağırış edir, digər tərəfdən isə açıq ermənipərəst və anti-Azərbaycan, anti-Türkiyə mövqe nümayiş etdirir.

Fransanın Cənubi Qafqaz regionunda destruktiv siyasət həyata keçirməsi, bu məsələdə Ermənistandan vasitə olaraq istifadə etməsi məlum həqiqətdir. Hazırda bu istiqamətdə siyasətini davam etdirən Fransa Ermənistanı silahlandırmağa xüsusi diqqət edir. Bu məsələ bir neçə gün əvvəl Fransa Senatının sədri Jerar Larşenin Ermənistan parlamentinin spikeri Alen Simonyanla görüşündə də diqqət mərkəzinə gəlib. Bir sözlə, Fransa Cənubi Qafqazda yaranan yeni geosiyasi reallıqları qəbul etmək istəmir. Elə buna görə Fransanın Ermənistana



silah təchizatını həyata keçirməsi üçün uzun müddətdir ki, müzakirələr aparılır. Eyni zamanda, ATƏT-in Minsk qrupu formatının iflasa uğramasından sonra Fransa hər vəchlə Ermənistana yardım etmək istəyini gizlətmir.

Biz ötən il Fransa Senatı və Milli Assambleyasının Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki separatçı rejimin tanınması ilə bağlı qəbul etdiyi qərarları unutmamışıq. Bizi ən çox narahat edən məqam bu cür qərəzli addımların tərəfdaş hesab etdiyimiz ölkə tərəfindən atılmasıdır. Ən maraqlısı isə, gələn il Azərbaycanla Fransa arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunacaq. Belə bir məqamda Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuan Ermənistanda səfəri zamanı Türkiyədə və "artsax"da "erməni mədəniyyətinin izləri"nin silinməsindən bəhs etməsi, sadə dillə desək, siyasi ciddiyyətdən uzaqdır. Bu təəccüb də doğurmur, çünki xisləti, əqidəsi budur. Necə deyərlər: ilanın ağına da lənət, qarasına da. Baxın, Azərbaycan Fransada dünya mədəni irsinin nümunələrinin qorunması və bərpasına dəyərli töhfələr verib. Bu faktların fonunda Fransa senatı sədrinin açıqlamaları Azərbaycan xalqının bu ölkəyə onsuz da kövrək olan etimadını bir qədər də sarsıtmaqla yanaşı, həm də postkonflikt dövründə iki xalq arasında qarşılıqlı dialoq mühitinin formalaşmasına, davamlı sülh və sabitlik formulunun tapılması səylərinə də ciddi zərbədir. Azərbaycan 44 günlük müharibə nəticəsində öz ərazi bütövlüyünü bərpa edib. Fransanın da həmsədri olduğu ATƏT-in Minsk qrupunun 30 il ərzində təmin edə bilmədiyi sülhə nail olduğunu göstərdi. Əgər Fransa Senatının sədri həqiqətən tərəfsiz və ədalətli olmaq niyyəti güdmüş olsa idi, səfərini təkcə Ermənistana deyil, regiona edər, Azərbaycana da rəsmi səfərə gələrdi, işğaldan yenicə azad olunmuş ərazilərimizdə 30 il ərzində Ermənistan tərəfindən törədilmiş vandalizm və barbarlığı, bu gün "Qafqazın Xiroşiması" adlandırılan Ağdam şəhərini öz gözləri ilə görmüş olardı. Nə edirlərsə etsinlər məqsəd bəllidir: qərəzli və birtərəfli mövqe nümayiş etdirmək.

Ancaq Fransa Senatı heç bir fakta əsaslanmadan Dağlıq Qarabağda erməni mədəni irsinin guya dağıdıldığı iddiası ilə çıxış edir. Çünki 90-cı illərdə və sonrakı dövrdə girov götürülmüş azərbaycanlıların taleyi heç vaxt Fransa siyasətçilərinin diqqətini çəkməyib. Ancaq Azərbaycan ərazisində terror törətməyə cəhd edən erməni diversantların qaytarılması ilə bağlı hüquqi əsası olmayan iddialarla çıxış ediblər. Əgər belə olmasaydı, Fransa minalanmış ərazilərin xəritələrinin verilməsi ilə bağlı bu günə qədər bir təşəbbüs irəli sürərdi, ancaq təəssüf ki, belə bir addım atılmayıb. Və bu gün Azərbaycan haqlı olaraq ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən biri olan Fransadan balanslaşdırılmış, ədalətli mövqe gözləmir, bunu Fransa rəsmilərinin açıqlamaları bir daha göstərir. Çünki Fransa Azərbaycan və Ermənistan arasında əlaqələrin bərpasında, davamlı sülhün təmin edilməsində maraqlı deyil. Və Fransa Senatının sədrinin Ermənistanda verdiyi açıqlamalar Azərbaycan xalqlarının bu ölkəyə onsuz da gövrək olan etimadını daha da zəiflədir.

Belə olan halda, əgər ermənilər bundan sonra da dövlət kimi mövcud olub yaşamaq istəyirlərsə, bizim keçdiyimiz son dərslərdən sonra ağıllarını başlarına yığmalıdırlar. Fransanın və digər onun kimi fitnəkar dövlətlərin "fətva"sına getməsinlər. Çünki nə Paris meriyası, nə də Fransa Senatı həll olunmuş münaqişəni separatçılara dəstək məqsədilə yenidən alovlandırmağa hesablanmış addımlar atmazdı və onlara məsləhət görürük ki, Ermənistana "məsləhətlər" verməkdənsə, bu günə kimi etmədikləri "əsl demokratiya" nümunəsini göstərsinlər.

*Rəfiqə Kamalqızı*

ARAŞDIRMA

***Müharibələrin, təbii fəlakətlərin, insanın səbəb olduğu bir çox qarşıdurmanın nəticəsində bütün dünyanın yalnız 3 faizi ekoloji cəhətdən toxunulmaz olaraq qalır. Ekoloji cəhətdən bütövlük, sağlam nəsil artıran və heç bir şəkildə müdaxilə edilməmiş yaşayış mühitinə malik bütün heyvan növlərinin mövcudluğu kimi xarakterizə edilir.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Müharibələr: öldürülən heyvanlar və məhv edilən ekosistem

İnsan faktoru nəticəsində zərər görməyən bu təmiz ərazilər Amazonda, Konqonun tropik meşələrində, Şərqi Sibir və Kanadanın şimalındakı meşə və tundralarda, Mərkəzi Afrikada yerləşir. Araşdırmaya görə, Avstraliyada pişik, tülkü, dovşan, keçi və dəvə kimi invaziv növlərin yerli heyvan növlərinə böyük təsir





göstərdiyi ekoloji cəhətdən bütöv ərazi yoxdur.

## Müharibədən tək insanlar zərər görmür

Bütün müharibələr insanlar üçün faciəvidir – həm günahsız, həm də günahı olan tərəflər üçün. Müharibələrin insanlar üçün nə qədər dəhşətli nəticələri olduğunu bilirik və bu barədə həmişə danışırıq. Ancaq təəssüf ki, digər fəlakətlər kimi, müharibənin bizdən başqa heyvanlara, ekosistemə və planetə təsirləri də çoxdur və barədə çox az danışılır. Müharibələr təkcə insanları öldürmür, planetdə yaşayan bütün canlıları məhv edir.

Müharibələrin iqlim problemləri ilə birbaşa əlaqəsi var. Müharibələrin iqlim problemlərinə təsirini araşdıran "Münaqişə və Ətraf Mühit Rəsədxanası" qurumunun məqaləsinə əsasən, karbon emissiyalarına birbaşa və dolayısı ilə səbəb olan səbəblər sıralanıb. Bilavasitə təsir edən səbəblər arasında neft anbarları, hasilat sahələri və boru kəmərləri müharibədə ilk hədəf alınan yerlərdən biridir. Bir ölkə başqa bir ölkə ilə müharibə edərkən ilk növbədə neft bazalarına, təbii qaz xətlərinə zərbə endirməsi, orada zəhərli qaz sızması və yanğınlar olması xəbərini çox görmüşük. Bu yanğınlar təbii ki, böyük karbon qazı emissiyalarına səbəb olur.

Həmçinin, bitki örtüyünün və meşələrin yandırılaraq məhv edilməsi, bununla da iqlimə birbaşa təsir edən başqa bir müharibə fəsadıdır.

Məsələn, Vyetnam müharibəsi zamanı kimyəvi maddələrdən istifadə edilərək meşələrin məhv edilməsi nəticəsində ümumi meşə sahəsinin 44%-nin məhv edildiyi bildirilirdi. Təbii ki, bu, meşələrdə yaşayan milyonlarla canlının da yox olması deməkdir. Müharibədən sonrakı vəziyyətə nəzər saldıqda, ərazidə idarəetmənin zəifləməsi və iqlim-ətraf mühit ilə əlaqədar görülən tədbirlərin əhəmiyyətini itirməsi səbəbindən daha çox çirkləndirici variantlara əl atıldığını görürük.

Məsələn, Yəmən, Liviya və Suriya kimi münaqişə bölgələrində böyük miqdarda neftin yandırılması nəticəsində $CO_2$-nin atmosferə buraxılması hadisələri var. Ukraynanın müharibə dövründə su qıtlığı səbəbindən ekoloji zərər görməsi halları da istisna deyil. Buna görə də müharibə və qarşıdurmalar həm qısa, həm də uzunmüddətli perspektivdə ekologiyaya, bitki örtüyünə, canlılara



müxtəlif növ birbaşa və dolayı ziyan vurur. Müharibədən sonra, xüsusən də dağıdılmış şəhərlərin yenidən qurulması və torpaqlardan istifadənin dəyişməsi səbəbindən ekoloji problemlər davam edir.

## Silah sənayesi təbiəti məhv edir

Başqa bir məsələ də budur ki, silahlanma və müharibə sənayesi, hətta sülh dövründə belə planetə ən çox ziyan vuran sahələrdən biridir. Silahların istehsalı zamanı müəssisələrin atmosferə ötürdüyü karbon qazı ciddi problemlərə səbəb olur. Məsələn, bu səbəblə Pentaqon, İsveç, Norveç və Finlandiyadan daha çox karbon qazı buraxır. 2017-2018-ci illərdə Böyük Britaniya ordusunun yaratdığı tullantılar 60 ölkənin ümumi emissiyalarından çox olub. ABŞ ordusu 140 digər ölkənin ordusunun cəmindən daha çox karbon emissiyası istehsal edir. Bundan əlavə, hərbi obyektlərin yerləşdiyi yerlərdə torpaq və içməli su ehtiyatları təhlükəli kimyəvi maddələrlə (arsen, qurğuşun, asbest kimi) zəhərlənir. Bunlar həm insanlar, həm də təbiətdəki digər canlılar üçün böyük risklər yaradır.

Müharibələr tarix boyu biosferi dəyişmək potensialına malik dağıdıcı qüvvə olub. Bu mənfi təsirlər təkcə birbaşa münaqişələr nəticəsində deyil, həm də nüvə silahları, hərbi təlimlər və hərbi sahə ilə əlaqəli çirkləndiricilər kimi baş verir.

Məsələn, bomba atıldığı zaman həmin ərazidəki insanlarla bərabər heyvanlar da dəhşətli şəkildə öldürülür, həmçinin yaşayış mühiti dəyişir, atılan bombanın səbəb olduğu kimyəvi çirklənmə, bombanın yaratdığı yüksək desibelli səslər heyvanların ölümlərindən əlavə fizioloji və psixoloji problemlər yaşamasına səbəb olur, biomüxtəlifliyin azalması, növlərin nəslinin kəsilməsi və s. ilə nəticələnir.

Dənizdən olan hücumlarda sualtı partlayıcıların istifadə və səs dalğaları dənizin altında yaşayan heyvanların həyatına ciddi təsir edən vəziyyətlərdir. Bu partlayışlar zamanı yaranan təzyiq səbəbindən su altında yaşayan heyvanların ölümünə və ya ciddi zədələnməsinə səbəb olur.

Bununla belə, müharibə zamanı vəhşi təbiətdə qənimət ovuna çıxanlar da az deyil. Məsələn, Mozambikdə baş verən qarşıdurmalar zamanı döyüşən tərəflər zaman-zaman Qoronqosa Milli Parkında qənimət ovuna da çıxaraq buynuzu qiymətli keyvanları öldürərəq buynuzunu qənimət kimi kəsib götürüblər.

## Qarabağdakı minalar nadir heyvan növlərini məhv edir

Qarabağ müharibəsi zamanı ermənilərin Qarabağ ərazisində basdırdıqları çoxsaylı minalara insanlarla bərabər vəhşi təbiətin nadir növdən olan heyvanları da düşür. Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bir müddət əvvəl sosial şəbəkədə Laçın rayonunda Ermənistan tərəfinin basdırdığı minanın detonasiyası nəticəsində ölən ayı balasının qalıqlarının görüntülərini də paylaşmışdı. Prezidentin köməkçisi həmin paylaşımda belə yazmışdı:

"Danışan Şəkillər! Azərbaycanın işğaldan azad edilmiş Laçın rayonunda minanın partlaması nəticəsində həlak olan qonur ayı balasının qalıqları. Partlayış sahəsindən toplanmış minaların damğaları onların 2021-ci ildə Ermənistanda istehsal olunduğunu göstərir. Ermənistan Azərbaycanın əvvəllər işğal olunmuş torpaqlarını milyonlarla mina ilə çirkləndirib və bu mina mülki əhalinin, habelə vəhşi heyvanların həyatını təhlükə altına almaqda davam edir".

Rəsmi məlumatlara görə, 2020-ci ildə Ermənistan Respublikasının işğalından azad edilmiş və 2023-cü ildə Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin, terror qruplarının qalıqlarından təmizlənmiş Azərbaycan Respublikasının ərazilərində - Qarabağ və Şərqi Zəngəzurda 1 milyondan çox mina və partlamamış hərbi sursatın mövcud olması ehtimal olunur. Təxminən Livan boyda olan bu ərazi dünyanın mina ilə ən çox çirklənmiş sahələrindən biri hesab olunur.

Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan Beynəlxalq Qırmızı Siyahıda olan növlər də var. Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır. Azad edilmiş ərazilərdə ekoloji fəlakət ürək ağrıdır. 30 illik işğal dövründə ərazidə xeyli sayda meşələrin qırılması və ya yandırılması, torpaq və su hövzələrinin qanunsuz dağ-mədən sənayesi işləri nəticəsində kimyəvi cəhətdən çirkləndirilməsi heyvanlara qarşı da kütləvi qırğındır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
31 oktyabr
2023-cü il

# “Mağazanın 55 qəpikdən çörək alıb-satması sual doğurur”



“Məlumat verildiyi kimi, çörəyin qiymətinin 60 qəpikdən 55 qəpiyə endirilməsi iri ticarət şəbəkələri ilə aparılan müzakirələrdən sonra mümkün olub. Buna görə də bunun birbaşa bazar iqtisadiyyatı qanunları nəticəsində enməsini söyləmək birmənalı qarşılana bilməz”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib. E.Əmirov bildirib ki, sonrakı proseslərdə əgər məhəllə marketlərində də bu ucuzlaşmanın nəticəsi olaraq qiymətlərin 55 qəpiyə salınması mümkün olarsa, artıq bunu bazarın diqtəsi hesab etmək olar: “Sadəcə olaraq məhəllə marketlərində bildirilir ki, çörək onlara 55 qəpikdən təhvil verilir. Yəni 55 qəpikdən

## İQTİSADÇI DANIŞDI

çörək alan mağazanın 55 qəpikdən də çörəyi sata bilməsi artıq sual doğurur.

Görünür ki, iri ticarət şəbəkələrinə çörək fərqli qiymətdə gedir. Əks təqdirdə isə satılan məsuldan əldə olunan gəlirlə müqayisədə çörəkdən heç bir gəlir əldə etməmək prinsipi tətbiq edilir. Digər halda məhəllə marketlərindən verilən məlumatlarla, iri ticarət şəbəkələrindəki çörəyin 55 qəpiyə satılması faktı arasında qəribə situasiya yaranır”.

*Səbinə Hüseynli*

# “Mançester Yunayted” daha bir antirekorda imza atıb...



***Ən böhranlı dövrünü yaşayan İngiltərənin "Mançester Yunayted" klubu daha bir antirekorda imza atıb.***

Heç cürə acınacaqlı məğlubiyyətlərdən canını qurtara bilməyən ”qırmızı-şeytanlar” şotlandiyalı baş məşqçi Aleks Ferqyusonun gedişindən sonra "Old Trafford"da 34 Premyer Liqa matçında uduzub. Son məğlubiyyət ötən gün X turda ”Mançester Siti” ilə oyunda (0:3) qeydə alınıb.

Komanda 81 yaşlı mütəxəssisin 26 illik dönəmində çempionatda yalnız 34 dəfə yenilib. Qeyd edək ki, Aleks Ferqyuson 1986-cı ilin noyabrından 2013-cü ilin mayına qədər ”Mançester Yunayted”in baş məşqçisi olub.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# PSİXOLOQ: “Onlar düşündüyümüz qədər çarəsiz deyillər“

***“Autizmli uşağı olan valideynlərdən ilk növbədə ediləcək ən böyük tövsiyyə odur ki, uşaqlarına yazığı gəlirmişcəsinə davranmasınlar. Eyni zamanda fərqli olduqları üçün uşaqlarını seçməyə, daha çox qayğı və diqqət göstərməyə ehtiyac yoxdur. Cəmiyyətdə hər kəsin autizmli uşaqları da özləri kimi qəbul etməsi hazırki dövr üçün mümkünsüzdür.***



Çünki həmin uşaqların davranışları, kommunikasiyası çox fərqlidir. Onlar istənilən halda fərqlənəcək potensiala malikdirlər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib.

Psixoloq bildirib ki, ilk növbədə valideyn övladının fərqli olduğunu qəbul etməlidir: “Çalışmaq lazımdır ki, uşaqlar həyata adaptasiya edilsin. Valideynləri olmadıqda da həyatlarını davam etdirə biləcək potensialda böyüdülməli, cəmiyyətə adaptasiya edilməlidirlər.

Autizmli uşaqların müəyyən bacarıq və qabiliyyətləri olur. Onlar düşündüyümüz qədər çarəsiz deyillər. Bu cür uşaqları bəzən rahat buraxıb, digər özəlliklərinin kəşf etməsinə icazə verməliyik. Autizmli uşaqları digər uşaqlar ilə müqayisə edib, onların səviyyəsinə çatdırmaq üçün ona əziyyət və travma verməyə ehtiyac yoxdur. Nəzərə alaq ki, autizmli uşaqlar olduqca həssas və duyğusal olurlar. Buna görə də onları müqayisə obyektinə çevirməkdənsə, özəlliklərini kəşf etməyə vaxt sərf etməliyik”.

*Səbinə Hüseynli*

## Ünvanlı sosial yardım artacaq...

Azərbaycanda ünvanlı sosial yardım artacaq. Gələn il Azərbaycanda minimumu və ehtiyac meyarının həddi 270 manat olacağı nəzərdə tutulur. Belə ki, ehtiyac meyarı 246 manatdan 270 manata qədər artırılır. Ehtiyac meyarı artdığından ünvanlı sosial yardımlarından artırılması nəzərdə tutulur.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**